

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 13 (24.395)

30 mart 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti





# Zəfər meydanından başlayan Novruz bayramı

Bu il Xanın kəndindən separatçı qalıqlarının son təmizlənmə işlərindən sonra Qarabağın mərkəzində, Zəfər meydanında yandırılan ilk Novruz bayramı tonqalı sanki 30 il ərzində bu torpaqlarda yığışıb qalmış bütün his-pası, mikrobları da yox edərək yeni günlərə işıq tutan əbədi bir məşələ çevrildi. Dövlət başçımız cənab İlham Əliyevin dünya gündəminin bu qədər məşğul və kifayət qədər gərgin olan bir dövründə Novruz tonqalının alovları fonunda Xankəndidən verdiyi siyasi mesajlar bu torpaqlara, nəhayət ki, ən gözəl baharın gəldiyini, heç zaman qan tökülməməsi, xalqımızın sülh içində yaşaması üçün gərəkən bütün iradəni ortaya qoyacağının daha bir ifadəsi idi.

Novruz qədim türklərin böyük bayramıdır və bu əziz bayram günlərində insanların ən böyük arzusu doğma yurduna qayıdış, dədə-baba torpaqlarını, əzizlərinin məzarlarını, sağ qalan yaxınlarını ziyarət edib mənəvi zənginləşmək, torpağın bahar ətrindən yeni Novruza qədər bir xonça dolusu pay tutmaqdır. Təəssüf ki, otuz illik erməni işğalı dövründə Xankəndidə bir nəfər də olsun azərbaycanlı sağ qalmasa da, amma əvəzində bu torpaqlarda erməniləşdirilə bilinməyən və Azərbaycanın sərvətləri hesabına tikilmiş binalarımız qalmaqdadır. Bu bayram günlərində Xocalıdakı toplu məzarlardan tapılan insan qalıqlarının da kimliyi bilindikcə burada şəhid olmuş bütün azərbaycanlıların ruhlarına və onların yaxınlarının qəlbinə bu bayram tonqalı bir işıq saçdı. Və beləcə, otuz il gözü yolda qalmış Pənahəli xanın yurduna Bakıdan, doğma Xəzərin sahillərindən gətirilmiş bu Atəşgah alovu həzin dilləri ilə min kilometrlərlə uzaqda olsa da, bütün dünya azərbaycanlılarına və bütün dostlarımıza xoş Novruz arzularını deyirdi.

Həmişə xəyanətə hazır olan qonşularımızdan fərqli olaraq Azərbaycanın onu sevən çox sayda dostları və qardaşları vardır. Xalqımız kökü bir olan böyük Türk dünyası qədər qardaşlarına, Azərbaycanla etibarlı münasibətləri olan çox sayda dostlarına güvənir. Ermənistana və onun cəmi 2-3 havadarına Zəfər meydanından verilən bu son xəbərdarlıq, bu mənada, onların bir daha çirkin niyyətlərinə çatamayacaqlarını, Novruz tonqalının əbədi şölələnəcəyini bildirirdi. Dünyaya işıqsaçan, regional güc olan Azərbaycanın dünya gücləri ilə münasibətdə apardığı müdrik siyasəti, xalqımızın Qarabağ sevgisini və onun rəhbərinin "dəmir yumruğ"unu yaxşı bilən düşmən bunu heç zaman unutmamalıdır!

Novruz bayramı insanları qovuşduran, küsülüləri barışdıran, sülh, sevgi-məhəbbət və bərəkətlə dolu el şənliyidir. Bundan əvvəl Şuşaya, Suqovuşana, Talış kəndinə qayıdan Novruz tonqalı doğma Qarabağımıza həyatı qaytardı. Torpaqlarımız dirçəldi, əkildi, yollar çəkildi, yaşayış binaları, məktəblər tikildi, köçkün ailələri öz yuvalarına qayıtdı, ilk Qarabağ toylarını bütün Azərbaycan izlədi. Xankəndinin mərkəzində, Zəfər meydanında yandırılan budaqfəki Novruz tonqalı isə buradan bütün dünyaya "Qarabağ Azərbaycandır!" nidasını bir daha xatırlatdı. "Dəmir yumruğ"un yerində qaldığını, bunu heç kimin unutmamasını istəyən xalqımızın iradəsi, onun rəhbərinin qətiyyəti ilə gələcəkdəki Novruz tonqallarımız bundan sonra böyük və bütöv Vətənimizin hər bir guşəsində əbədi yanacaq.

Bayramınız mübarək!

✍ Əli CABBAROV



# Naxçıvanda Bahar festivalı keçirilib

Martın 20-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Bahar festivalı start götürüb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri festivalda iştirak ediblər.

Festival Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin "Nağaraçalanlar" ansamblının ifası ilə start götürüb.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli çıxış edərək qeyd edib ki, bu il Azərbaycanda Novruz bayramı fərqli atmosferdə, daha yüksək əhvali-ruhiyyədə qeyd edilir. Bütöv Azərbaycanın hər bir bölgəsində, işğaldan azad olunmuş Xankəndidə, Şuşada, Xocalıda, Qarabağda bayram tonqalları qalanır. Bütün bunları Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevə, şanlı Azərbaycan Ordusuna, qəhrəman övladlarımıza, qazilərə, o cümlədən şəhid ailələrinə borcluyuq.

Səlahiyyətli nümayəndə bildirib ki, Novruz yenilik deməkdir. İlin bu vədəsindən başlayaraq təbiət canlanır, cəmiyyətin bütün sahələrində yeniliklər baş verir. Naxçıvan Muxtar Respublikasını isə bu il daha böyük yeniliklər gözləyir. Naxçıvanda energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, infrastruktur quruculuğu və turizm sektorlarında mühüm yeniliklər baş verəcək, yeni turizm obyektləri və otellər qurulacaq.

Fuad Nəcəfli yenilənmə və quruculuq işlərində muxtar respublika sakinlərinə uğurlar arzulayıb, hər kəsin bayramını təbrik edib.

El ağsaqqalı Dədə Qorqud baharın gəlişi münasibətilə xeyir-dua verib, bayram tonqalını alovlandırıb.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının kollektivi milli rəqslərimizdən ibarət kompozisiya təqdim edib.

Tədbir iştirakçıları muxtar respublikanın şəhər və rayon kollektivlərinin təqdim etdiyi folklor və mətbəx nümunələri ilə tanış olub, musiqi, rəqs və digər ifaları izləyiblər.





Festivalda Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, KOBİA-nın Naxçıvan Regional Koordinatorluğunun, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin, Naxçıvan Dövlət Universitetinin, "Sevinc" Milli-Mənəvi Dəyərlər və Müasir Çağırışlarla Sintezin İnkişafına Dəstək İctimai Birliyinin, digər təşkilatların, qurumların və fiziki şəxslərin təşkil etdiyi müxtəlif sənətkarlıq nümunələri və əl işlərindən ibarət sərgi-satış da nümayiş olunub, ictimai iaşə xidməti göstərilib.

Sonda bayram tədbiri Ordubad Rayon Mədəniyyət Sarayının Novruz mərasimi ilə bağlı təqdim etdiyi folklor nümunəsi ilə başa çatıb.

Fuad Nəcəfli uşaqlarla xatirə fotoları çəkdirib, tədbir iştirakçılarını təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Bahar festivalı martın 24-dək davam edib.

"Şərq qapısı"


Heydər Əliyevin birinci prezidentlik dövrü 2

Naxçıvanda doğum günü mart ayında olan şəhidlərin xatirəsi yad edilib 3

Qan yaddaşı 6

"Naxçıvan fotolarda" adlı fotosərginin açılışı olub 8

"Orucun 15-i" mərasimi haqqında eşitmişdinizmi? 11

Naxçıvanın "Bərəkət"li məhsulları 12



# Heydər Əliyevin birinci prezidentlik dövrü

*Müsahibə 1996-cı il aprelin 4-də "Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyer tərəfindən Prezident Aparatında Ümummilli Lider Heydər Əliyevdən alınıb. Müsahibənin aktuallığını nəzərə alaraq onu ilk dəfə ingiliscədən Azərbaycan dilinə tərcümə ilə təqdim edirik.*

***Betti Bleyer:*** – Azərbaycanla maraqlanan hər kəs bilir ki, Siz prezident seçildikdən sonra ölkədə çox böyük və əhəmiyyətli dəyişikliklər baş verib. Azərbaycan beynəlxalq neft şirkətləri ilə zəruri müqavilələr imzalayıb, yeni Konstitusiya qəbul edib, yeni Parlament seçib və Bakıda nəzərəçarpacaq dərəcədə böyük tikinti və bərpa işləri vardır. Sizin fikrinizcə, prezidentlik dövrünüzün ilk üç ili ərzində başqa hansı mühüm hadisələr baş vermişdir?

***Heydər Əliyev:*** – Sizin qeyd etdiyiniz kimi, Azərbaycanda böyük dəyişikliklər baş vermişdir. Ancaq mən deməliyəm ki, bütün bu dəyişikliklərin ən mühüm nəticəsi bizim respublikada yaratdığımız sabitlikdir. Sabitlik həyati vacib bir nailiyyətdir. Ermənilərlə faktiki olaraq atəşkəsə nail olunub. Hazırda biz müharibə vəziyyətində deyilik. Biz altı il ərzində ərazimizi müdafiə etməyə məcbur edildiyimiz bir vaxtda – qantökülmənin kulminasiya nöqtəsinə çatdığı vaxtda atəşkəsə nail olmuşuq. İki ildir ki, bu davam edir. Bütün döyüşlər, bütövlükdə, Azərbaycan torpağında baş verib. İnsanlar hər gün müharibədə ölürdü. Beləliklə, atəşkəs bizim üçün böyük nailiyyətdir.

Əlbəttə, 20 faiz torpaqlarımız erməni silahlı qüvvələri tərəfindən indiyədək işğal olunub. Əhalimizin bir milyonu hələ də qaçqındır, onlar məhz öz vətənlərində öz evlərindən köçürüldülər. Həmin faciəvi faktlar bu gün mövcuddur, doğrudur, onlar bu hadisələri mən prezident seçilməzdən əvvəl etdilər. Ancaq bu keçmişdə üçqat faciə idi: bizim köçürülən əhalimizin faciəsi, işğal altında olan ərazimizin faciəsi və həqiqətdə qurtarmayan müharibənin faciəsi. Öz torpağımızda erməni təcavüzü ilə üzləşəndən, 1988-ci ildən bəri bizim vəziyyətimiz bu cür olmuşdu.

Müharibənin gətirdiyi mürəkkəbliklərlə yanaşı, respublikada bir-biri ilə hakimiyyət uğrunda mübarizə aparan müəyyən qruplar var idi. Və təkcə bu fakt iğtişaşa və sabitliyin pozulmasına səbəb oldu. Soyğunçuluq, qətl və oğurluq halları artdı.1994-cü ildə müəyyən silahlı qruplar dövlət çevrilişinə cəhd etdi və 1995-ci ildə hakimiyyəti ələ keçirmək üçün başqa bir çevriliş cəhdi bir qrup polis tərəfindən təşkil edildi. Dövləti qorumağın əvəzinə, onlar silahlarını dövlətə qarşı çevirdilər. Baxmayaraq ki, bu şəxslər polis sistemində idi, bu insanların özlərinin əksəriyyəti cinayətkarlar idi. Onlar qarət edirdilər və pula görə insanları öldürürdülər, uşaqları oğurlayır və girov götürülmüş şəxsi geri qaytarmaq üçün hədələyib pul alırdılar.

Siz iki il əvvəl burada idiniz, beləliklə, siz o vaxt mövcud olan vəziyyətlə bugünkü vəziyyəti müqayisə edə bilərsiniz. Silahlanmış cinayətkarlar küçələri gəzirdi. İndi insanların istədikləri vaxtda küçədə gəzməsi üçün tamamilə əmin-amanlıqdır. Beləliklə, biz respublikada siyasi və sosial sabitliyi pozmağa cəhd etmiş o qüvvələrin qarşısını almağı bacardıq.

Sabah (aprelin 5-də) biz son iki il ərzində Azərbaycanda baş vermiş sosial və siyasi hadisələrin səbəblərini təhlil etmək məqsədilə Respublika Sarayında ümumi yığıncaq keçirməyə hazırlaşırıq. Biz gələcəkdə belə hadisələrin təkrar olunmaması üçün tədbirlər müəyyən etmək istəyirik. Cəmiyyətin bütün təbəqələrini təmsil edən 2500-dən çox nümayəndə görüşdə iştirak edəcək. Müxalifət də daxil olmaqla bütün siyasi partiyalar iclasda iştirak edəcək.

Sabitlik çox vacibdir. Sabitlik olmadan ölkə xarici şirkəti cəlb edə bilməz. Mən Azərbaycana xarici investisiyanı gətirmək istəyirəm. Azərbaycanda yaratdığımız sabitlik xarici sərmayədarlara bizimlə bağlı maraqlarını ifadə etməyə imkan vermişdir. Əgər biz sabitliyə nail olmasaydıq, yeni Konstitusiyamızı qəbul edə bilməzdik və yeni demokratik Parlamenti seçə bilməzdik. Bunlar bizim üçün yeni müstəqil respublikamızda ilk nailiyyətlərin bəziləridir. Sabitlik ötən iki ildə bizim ən böyük nailiyyətlərimizə səbəb olub.

***Betti Bleyer:*** – Bizim jurnalımızda bu ötən dörd ildə mədəni və ziyalılarla bağlı müxtəlif buraxılışlarda ədəbiyyat, incəsənət və musiqini sistemli şəkildə öyrənmişik. İndi biz elmdəki əsas töhfələrin bəzilərini tədqiq edirik. Mən həmişə azərbaycanlıların bu sahələrdə nailiyyətinin səviyyəsindən heyrətlənmişəm. Belə yüksək səviyyə sovet dövründə əldə edilib.

Bu gün intellektual töhfələr verən insanlar ciddi iqtisadi çətinliklərlə üzləşir. Əlbəttə, siz məndən daha yaxşı bilirsiniz ki, bir çoxları ölkəni tərk etməli olmuşdur və sadəcə, ailələrini dolandırmaq məqsədilə, hətta daha çox öz sənətləri ilə deyil, müxtəlif başqa fəaliyyətlərlə məşğul olmuşdular. Sizə mənim sualım budur ki, respublikada intellektual və mədəni resursların bu xəzinələrini qorumaq üçün bu gün nəzərdən keçirilən konkret strategiyalar varmı?

***Heydər Əliyev:*** – Azərbaycanlılar çox istedadlıdır. Bizim çox istedadlı insanlarımız var. Elmin, ədəbiyyatın və incəsənətin inkişafına Azərbaycanda həmişə böyük diqqət göstərilmişdir. İstedadlı insanlar yaxşı ali təhsil almışlar və onlara qabiliyyətlərini nümayiş etdirmək üçün şərait yaradılmışdır. Mən əvvəl, 70-ci illərdə burada işləyəndə bu məsələlərə böyük diqqət göstərirdim. Biz o illər ərzində universitetləri, teatrları və konsert zallarını tikdik. İşləmək üçün sənətkarlara və ziyalılara əlverişli şərait yaradıldı.

Ancaq bu həqiqətdir ki, keçid dövründə bu istedadlı insanların potensialını optimallaşdırmaq çox çətin olmuşdur, çünki iqtisadi vəziyyət çətindir. Digər tərəfdən də 1989-1993-cü illərdə bu problemlərə çox diqqət göstərilmədi.

Əgər bu yaxınlarda mətbuatı izləmisinizsə, siz görə bilərsiniz ki, biz bu günlərdə nə qədər yubileylər keçirmişik. Məsələn, mən şairlərin – mərhum Səməd Vurğunun və mərhum Süleyman Rüstəmin 90 illik yubileylərinin qeyd edilməsi haqqında fərmanlar imzaladım. Biz bu yaxınlarda mərhum müğənni Rəşid Behbudovun 80 illik yubileyini keçirmişik. Mərhum bəstəkar Üzeyir Hacıbəyovun xatirəsini böyük hörmətlə yad etdik. Biz iyirminci əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalının redaktoru, böyük ədib Cəlil Məmmədquluzadənin 125 illik yubileyini dövlət səviyyəsində qeyd etdik. Sonra tarixçi Sara Aşurbəyli var idi, bu keçən yanvar 90 illiyində özü də iştirak etdi. Həmçinin biz mərhum rəssam Səttar Bəhlulzadənin anadan olmasının 85 illik və mərhum cərrah Mustafa Topçubaşovun 100 illik yubileylərini qeyd etdik. Üç il əvvəl heç kim xalqımıza belə güclü mədəni və intellektual töhfələri bəxş edən bu böyük şəxsiyyətlərə, ümumiyyətlə, diqqət yetirmirdi.

Siz strategiyalar haqqında soruşdunuz. İki, yaxud üç il sonra mən əminəm ki, biz respublikada böyük iqtisadi müvəffəqiyyətə nail olacağıq. Biz iqtisadi cəhətdən güclü olan kimi bu sahələrdə çalışan insanların iqtisadi vəziyyətini gücləndirmək üçün əlimizdən gələni edəcəyik. Bu gün mənim məqsədim onları mənəvi cəhətdən dəstəkləməkdir. Dövlət səviyyəsində kiminsə yubileyini qeyd etmək unudulmaz hadisə olur və o şəxsi qəhrəman səviyyəsinə yüksəldir, bir növ onun əməyi bir daha şərəfə və ehtirama layiq görülür.Yubileylər cəmiyyətimizə ən böyük və gözəl töhfələri bəxş etmiş insanların bəzilərinin yada salınmasına kömək edir.

***Betti Bleyer:*** – Rusiya və Amerika Birləşmiş Ştatları, bu il hər ikisi prezident seçkiləri keçirirlər. Mənə elə gəlir ki, prezidentlərin hər ikisi, Yeltsin və Klinton Azərbaycandan "kiçik mənfəət əldə etmək" və təkrar seçilməyə nail olmaq üçün özlərinə kömək məqsədilə siyasi baxımdan istifadə etməyə cəhd edə bilərlər. Onların hər ikisi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülh prosesində vasitəçilər kimi görünürlər. Siz onların, sadəcə, öz siyasi məqsədləri üçün vəziyyətdən istifadə etməyə cəhd etdiklərinin və regionda uzunmüddətli sülhü təmin etməyi, əslində, istəmədiklərinin mümkünlüyünü düşünürsünüzmü? Bu haqda nə deyə bilərsiniz?

***Heydər Əliyev:*** – Siyasi məqsədləri başa düşmək həmişə çox çətindir. Hər ikisi – Rusiya və Amerika Birləşmiş Ştatları böyük dövlətlərdir və bu, təbiidir ki, təkrar seçilmək istəyən hər bir kəs hamı tərəfindən tanınmağa və bəyənilməyə nail olmağa cəhd edərdi.

Hər şeydən əvvəl, mən ümid edirəm ki, prezident seçkiləri bu ölkələrin hər ikisində demokratik qaydada keçiriləcək. İkincisi, əgər kimsə fikirləşir ki, o öz siyasi məqsədləri və gündəmdə qalması üçün Azərbaycandan istifadə edə bilər, o səhv edir. Azərbaycan müstəqil ölkədir və biz kiminsə siyasi məqsədlərinə xalqımızı qurban verməyəcəyik.

***Betti Bleyer:*** – Xarici investisiya baxımından müəyyən qanunvericilik var ki, ya xarici investisiyanı qorumaq üçün tam uyğun deyil, ya da o hələ çox effektiv işləmir. Məsələn, verginin miqdarı. Beynəlxalq şirkətlərin bu ölkədə çoxlu problemləri və narahatlıqları var. Bu islahatlarla bağlı Sizin planlarınız nədir?

***Heydər Əliyev:*** – 1996-cı ildə biz bu problemlərlə bağlı iclas keçirməyi planlaşdırırıq. Hər şeydən əvvəl, biz özəlləşdirmə prosesini sürətləndirmək niyyətindəyik. Bir neçə gün əvvəl biz kənd təsərrüfatında islahatlarla bağlı iclas keçirdik. Kənd təsərrüfatı azad bazar iqtisadiyyatı ilə əlaqəli olduğuna görə tezliklə kənd təsərrüfatı qurumlarında böyük dəyişikliklər müşahidə olunacaq, Biz yaxın gələcəkdə mülkiyyətin özəlləşdirməsini şərtləndirən torpaq islahatları haqqında yeni qanun qəbul etməyi nəzərdə tuturuq. Bu, çox əhəmiyyətli qanun olacaq. Nəhayət, bu proseslər və tapşırıqlar həll edilir, verginin miqdarı kimi problemlər qaydasına düşəcək və həll etmək tamamilə asan olacaq.

Güclü, sabit bir ölkəni idarə etmək çox çətin deyildir. Ancaq kiçik və çoxlu problemləri olan ölkəni idarə etmək son dərəcə çətindir. Əgər daha az problem olsaydı, biz onları daha tez həll edərdik.

***Betti Bleyer:*** –Azərbaycanın Prezidenti kimi Sizə ən böyük məmnunluğu gətirən bəzi şeylər hansılardır?

***Heydər Əliyev:*** – Həqiqətən, mən prezident olmaq istəmirdim. İnsanlar məndən prezident olmağımı, ölkəni idarə etməyimi istədilər. Mənim ən böyük narahatlığım, ən böyük marağım xalqdır. Mənim, həqiqətən, heç bir başqa narahatlığım yoxdur. Mənim heç bir başqa şəxsi marağım yoxdur. Mən istəyirəm ki, bizim ölkəmiz güclü, müstəqil ölkə olsun! Mən özümə və Azərbaycana inanıram və bu inam məni əmin edir ki, indi üzləşdiyimiz çətinliklərin çoxuna xalq olaraq qalib gələcəyik.

***İngilis dilindən tərcümə etdi:***
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Milli Məclisdə "Media haqqında" Qanuna dəyişikliklə bağlı qanun layihəsi müzakirə olunub



Azərbaycan Respublikası Milli Məclisinin martın 29-da keçirilən plenar iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında irəli sürdüyü "Media haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklə bağlı qanun layihəsi müzakirə olunub və birinci oxunuşda qəbul edilib.

Müzakirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli, Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov iştirak ediblər.

Plenar iclasda müzakirə olunan layihə "Media haqqında" Qanunun 59.2-ci maddəsinə dəyişiklik etməklə siyahısı müəyyən edilən orqanlar (qurumlar), Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin də çap mediası subyektinin təsisçisi olmasını nəzərdə tutur. Layihənin hazırlanmasının məqsədi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsidir və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasını yaratmaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Elm Günü qeyd edilib



AMEA Naxçıvan Bölməsində 27 mart – Elm Günü münasibətilə "Naxçıvanın elm məbədi: AMEA Naxçıvan Bölməsi" mövzusunda elmi konfrans keçirilib. Bölmənin kollektivi əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib.

Bölmədə keçirilən konfrans giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Elm Gününün Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsis olunduğunu qeyd edən akademik elmin cəmiyyətin inkişafındakı rolundan danışıb. Elmimizin Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətindən başlayaraq günümüzədək keçdiyi sistemli inkişaf yoluna nəzər salıb, 27 mart 1945-ci ildə əsası qoyulan Azərbaycan Elmlər Akademiyasının elmin inkişafına bəxş etdiyi töhfələrdən söz açıb. Elm Gününün təsis olunmasını Azərbaycan elminə və elmi ictimaiyyətinə göstərilən diqqət və qayğının təzahürü kimi qiymətləndirib.

Daha sonra AMEA Naxçıvan Bölməsi Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov "AMEA Naxçıvan Bölməsinin yaradılması və fəaliyyəti" mövzusunda məruzə edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Naxçıvanda doğum günü mart ayında olan şəhidlərin xatirəsi yad edilib




Martın 27-də "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə mart ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin və tələbə-gənclərin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Televiziyasının doğum günü mart ayında olan şəhidlərlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib. Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri videoçarxda adları çəkilən 34 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretləri ilə səhnəyə çıxıblar.

Naxçıvanda yaxşı bir ənənənin bünövrəsinin qoyulduğunu bildirən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli anım tədbirini yüksək qiymətləndirib və davamlı olacağını diqqətə çatdırıb.

Səlahiyyətli nümayəndə qeyd edib ki, əsrlər öncə mərhələ-mərhələ Azərbaycan ərazisində yerləşdirilən mənfur qonşularımızın ölkəmizə və xalqımıza qarşı məkrli siyasəti 1918-ci ildə daha geniş miqyas alıb. Həmin il martın 31-də bütün Azərbaycanda ermənilər tərəfindən genişmiqyaslı soyqırımı aktı törədilib, Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Xaçmazda, Naxçıvanda və Zəngəzurda on minlərlə soydaşımızın xüsusi işgəncələr vasitəsilə həyatına son qoyulub. Erməni daşnaklarının törətdiyi bu soyqırımı zamanı Şamaxı qəzasının 110, Quba qəzasının 167, Qarabağın 150-dən çox kəndi, Zəngəzur qəzasının 115 kəndi tamamilə dağıdılıb, Naxçıvanda Yaycı soyqırımı törədilib.

"Bu, dəyişilməz bir reallıqdır ki, öz içərisində "Daşnaksutyun", "Asala" kimi terror təşkilatlarını yaşadan bir cəmiyyətlə qonşuluqda yaşayırıq. "Böyük Ermənistan" tarixdə heç bir zaman olmayan, lakin bəzi qeyri-konstruktiv qüvvələr tərəfindən dəstəklənən təxribatdır", – deyən Fuad Nəcəfli bildirib ki, bu xülyanı gerçəkləşdirmək iddiasında olan ermənilər bolşeviklərin havadarlığı ilə sonrakı illərdə də soyqırımı və etnik təmizləmə siyasətini davam etdirib, Xocalıda, Malıbəylidə və digər ərazilərimizdə tarixdə misli





görünməyən faciələr törədiblər. Bütün bunlar öz kökünü 1918-ci il 31 mart soyqırımından götürür. Xalqımız bu soyqırımları, vandalizm hərəkətlərini heç zaman unutmayacaq və unutmamalıdır. Dövlətimiz və hökumətimiz bütün bunların unudulmaması üçün tədbirlər görür. Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanda bu hadisələrə siyasi qiymət verilib və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qalması rəsmi surətdə bəyan edilib. Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi yaradılıb, 2018-ci ildə soyqırımının 100-cü ildönümü yad edilib.

Fuad Nəcəfli deyib ki, bunların hər biri xalqımızın qan yaddaşıdır. Tarixinə və əzəli torpaqlarına sahib çıxan qüdrətli Azərbaycan dövləti heç kimin dəstəyinə ehtiyac duymadan bu gün işğaldan azad edilən bölgələrimizdə geniş quruculuq işləri görür. Qəsəbə və kəndlərimizə həyat verilir, soydaşlarımızın doğma torpaqlarımıza böyük qayıdışı reallaşır. Yeni reallıqlar fonunda önümüzdəki çağırışlardan ən böyüyü Zəngəzur dəhlizidir. Bu dəhliz region ölkələri üçün böyük bir əməkdaşlıq platformasıdır. Bəzi siyasi qüvvələr bu layihənin icrasına mane olmağa çalışsa da, hər birimiz əminik ki, bu məsələ sülh yolu ilə öz həllini tapacaq.

Naxçıvanda artıq bir ilə yaxındır ki, sosial-iqtisadi inkişaf proqramının icra olunduğunu vurğulayan səlahiyyətli nümayəndə bildirib ki, bütün sahələri əhatə edən 200-dən çox layihənin icrasında qazi və şəhid ailələri də yaxından iştirak edir. Fuad Nəcəfli bu dəstəyə görə təşəkkür edib, şəhidlərin xatirəsini hörmət və ehtiramla anıb, şəhid ailələrinə səbir, qazilərə cansağlığı arzulayıb.

Şəhid kapitan Seymur Cabbarovun atası İlham Cabbarov, şəhid leytenant Ramil Əliyevin anası Gülnarə Quliyeva və şəhid Saday Məmmədəliyevin anası Məhəbbət Məmmədəliyeva çıxış edərək övladlarının xatirələrinin bu cür yad olunmasının onlarda təskinlik və fərəh hissi oyatdığını bildirib, tədbirin təşkilində əməyi olanlara təşəkkür ediblər.

Sonda Naxçıvan Dövlət Universitetinin tələbə teatr studiyası və "Belkanto" vokal qrupunun birgə hazırladığı şəhidlərin xatirəsinə həsr olunmuş bədii kompozisiya təqdim olunub.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq "Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 22 iyun tarixli 325-06/S nömrəli Sərəncamına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təşkili məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində publik hüquqi şəxs statuslu "Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu" yaradılsın.

2. Müəyyən edilsin ki, Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu (bundan sonra – İnstitut) qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının minimum keyfiyyəti sahəsində elmi-praktiki araşdırmalar aparır, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsini həyata keçirir, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların layihələrini hazırlayır və aidiyyəti üzrə təqdim edir, qida və yem məhsullarına dair digər beynəlxalq standartların onların istehsalçıları tərəfindən könüllü tətbiqi, qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının minimum keyfiyyəti göstəriciləri üzrə tədqiqat xidmətləri göstərir.

3. İnstitutda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

3.1.1. İnstitutun yenidən təşkil və ləğv edilməsi.

3.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. nizamnaməninin və strukturun təsdiqi;

3.2.2. nizamnamə fondunun miqdarının müəyyən edilməsi.

3.3. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində nəzərdə tutulanlar istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 28 dekabr tarixli 223-VI FR nömrəli Fərmanının 1.10.2.1-ci yarımbəndində "Naxçıvan Qida təhlükəsizliyi laboratoriyası, elmi araşdırmalar və sahibkarlıq subyektlərinə xidmət mərkəzi publik hüquqi şəxs" sözləri "Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 3 noyabr tarixli 210-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.0.22-ci yarımbəndə "qida məhsullarının" sözlərindən əvvəl "tabeliyindəki qurumun elmi əsaslandırılmış təklifləri əsasında" sözləri əlavə edilsin;

5.2. 3.0.23-cü yarımbəndə "qəbul etmək," sözlərindən sonra "tabeliyindəki" sözü əlavə edilsin;

5.3. 3.0.64-cü yarımbəndə birinci halda "qida" sözündən əvvəl "tabeliyindəki qurum vasitəsilə" sözləri əlavə edilsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

6.1. İnstitutun nizamnaməsini və strukturunu təsdiq etsin, habelə nizamnamə fondunun formalaşdırılmasını təmin etsin və bu barədə bir ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

6.2. İnstitutun maddi-texniki təminatı ilə bağlı məsələləri iki ay müddətində həll etsin;

6.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

6.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

6.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

6.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 18 mart 2024-cü il*

## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Martın 18-də Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

İclasa sədrlik edən Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli bildirib ki, iclasın gündəliyi Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi barədədir.

Gündəlik təsdiq olunduqdan sonra İsmayıl Qəribli qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsi və Ali Məclisin Daxili Nizamnaməsinin 24-cü maddəsinə əsasən cari il bitdikdən sonra 1 aydan gec olmayaraq müvəkkil Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında muxtar respublikanın Ali vəzifəli şəxsinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir. Müvəkkilin illik məruzəsində muxtar respublikada insan hüquqlarının təmin edilməsi ilə əlaqədar görülmüş tədbirlər öz əksini tapır. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinin layihəsi Ali Məclisin müzakirəsinə çıxarılması üçün Ali Məclisin Hüquq siyasəti komitəsinə göndərilib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vahidə Bayramova layihə barədə məlumat verib.

Deputatlardan İsmayıl Qəribli, Aidə Allahverdiyeva, Qadir İbrahimov, Aidə Cəlilzadə, Nüsrət Həsənov, Hacıfəxrəddin Səfərli, Hüseyn Bağırsoylu və Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini Tofiq Rəcəbli gündəlikdə duran məsələ ilə əlaqədar çıxış edərək təklif və suallarını səsləndiriblər.

Vahidə Bayramova səsləndirilən suallara aydınlıq gətirib, təkliflərin nəzərə alınması üçün qeydiyyatı aparılıb.

Sonda müzakirə olunan məsələ ilə əlaqədar qəbul olunmuş qərarla Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edilib.

Bununla da iclas öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. "Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2005-ci il 9 mart tarixli 173-II FR nömrəli Fərmanı ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 19 mart 2024-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 19 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları ilə, qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Naxçıvan Muxtar Respublikasının (bundan sonra – muxtar respublika) büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Naxçıvan şəhərində yerləşir.

### 2. Nazirliyin fəaliyyət istiqamətləri

2.1. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirmək, təhsil müəssisələrinin təhsil fəaliyyətini əlaqələndirmək və istiqamətləndirmək;

2.1.4. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.5. təhsil müəssisələrinə tədris-metodiki rəhbərliyi və nəzarəti həyata keçirmək;

2.1.6. təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək, təhsilin keyfiyyət səviyyəsini qiymətləndirmək.

### 3. Nazirliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək;

3.1.2. müvafiq sahənin inkişafına dair dövlət proqramlarının, konsepsiyaların hazırlanmasında və bu sahənin prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək, habelə həmin sənədlərin icrasını təmin etmək;

3.1.3. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə öhdəliklərin muxtar respublikada yerinə yetirilməsi üçün tədbirlər görmək;

3.1.4. təhsilin keyfiyyətinin artırılması, elmi-metodiki təminatının gücləndirilməsi və təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələrin həyata keçirilməsini təmin etmək;

3.1.5. təhsil müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə, habelə təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarətin həyata keçirilməsini təmin etmək;

3.1.6. hər tədris ili üçün peşə təhsili müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulunun müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.7. məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb olunmasını təmin etmək və icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət etmək;

3.1.8. təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

3.1.9. muxtar respublika psixoloji-tibbi-pedaqoji komissiyasını yaratmaq, rayon, şəhər psixoloji-tibbi-pedaqoji komissiyalarının yaradılmasını təmin etmək;

3.1.10. sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmətin, habelə nitq pozuntusu olan təhsilalanlara kömək məqsədilə loqopedik xidmətin təşkilinin təmin olunmasına nəzarət etmək;

3.1.11. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı fənn olimpiadalarının, müsabiqələrin və yarışların keçirilməsini təmin etmək;

3.1.12. xüsusi istedada malik təhsilalanların müəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması tədbirlərinin həyata keçirilməsini təmin etmək, onlar üçün məqsədli və adlı təqaüdlərin təsis edilməsi istiqamətində aidiyyəti üzrə təkliflər vermək;

3.1.13. vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsini və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsini təmin etmək;

3.1.14. təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarına riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.15. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy vermək, verilmiş lisenziyanın şərtlərinə riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək, lisenziya sahibinin lisenziya şərtlərinə riayət etməməsi hallarını aşkar etdikdə lisenziyanın dayandırılması və ləğvi üçün lisenziya verən orqana təqdimat göndərmək;

3.1.16. təhsil müəssisələrinə tədris-metodiki rəhbərliyin həyata keçirilməsini təmin etmək;

3.1.17. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilinə nəzarət etmək;

3.1.18. məktəbəqədər təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq edən mexanizmlərin həyata keçirilməsini təmin etmək;

3.1.19. təhsil sahəsində qeyri-dövlət sektorunun dəstəklənməsi və rəqabət mühitinin inkişafı məqsədilə özəl və bələdiyyə təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq etmək, dəstəkləmək, onlara metodiki kömək göstərmək;

3.1.20. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan təhsil müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan təhsil müəssisələrinin nizamnamələrini təsdiq etmək, habelə bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy vermək;

3.1.21. təhsil fəaliyyətinin səmərəli təşkilinə, idarə edilməsinə və inkişafına, maddi-texniki baza, infrastruktur, avadanlıq, yüksəkixtisaslı pedaqoji kadrlar, informasiya və digər zəruri vasitələrlə təminatına şərait yaratmaq;

3.1.22. müvafiq sahədə planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə və qiymətləndirmənin (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirilməsini təmin etmək;

3.1.23. maddi-texniki və tədris bazasının yenilənməsi məqsədilə dövlət məktəbəqədər, ümumi və peşə təhsili müəssisələrinin ümumtəhsil və ixtisas dərslikləri, tədris vəsaitləri, ədəbiyyat, əyani və texniki vəsaitlərlə təmin edilməsini həyata keçirmək;

3.1.24. tabeliyində olan təhsil müəssisələrində tam dövlət təminatında olan təhsilalanların yemək, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, yataq ləvazimatı, dərslik, tədris ləvazimatı, zəruri avadanlıqlarla və sair ilə təmin edilməsini həyata keçirmək;

3.1.25. dövlət təhsil müəssisələrinin (yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan uşaq evləri istisna olmaqla) tədris, elmi, elmi-metodiki, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatının həyata keçirilməsini təmin etmək;

3.1.26. dövlət təhsil müəssisələrinin işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təkliflər vermək;

3.1.27. tabeliyində olan məktəbəqədər, ümumi və peşə təhsili müəssisələrinin təhsilverənlərə (pedaqoji kadrlara) tələbatının müəyyən edilməsini, habelə həmin müəssisələrin kadr təminatının həyata keçirilməsini təmin etmək;

3.1.28. tabeliyində olan təhsil müəssisələrində təhsil fəaliyyətinin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqinə şərait yaratmaq;

3.1.29. tabeliyində olan təhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsilini təmin etmək;

3.1.30. dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinin idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin həyata keçirilməsini təmin etmək;

3.1.31. dövlət məktəbəqədər və ümumi təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin sertifikatlaşdırılmasının həyata keçirilməsini təmin etmək;

3.1.32. tabeliyində olan təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlamaq, bununla bağlı təkliflərini təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti təmin etmək;

3.1.33. hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsilalana (uşağa, şagirdə və sair) düşən təhsil xərclərinin miqdarına və maliyyə normativlərinə dair təkliflər vermək;

3.1.34. təhsili idarəetmə orqanlarının, təhsil müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsini və istiqamətləndirilməsini təşkil etmək;

3.1.35. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təkliflər vermək;

3.1.36. dövlət peşə təhsili müəssisələrində təhsilalanların xüsusi iş geyim formaları ilə təmin olunmasına nəzarət etmək;

3.1.37. peşə təhsili müəssisələrinə tələbə qəbulunun həyata keçirilməsini təmin etmək;

3.1.38. tabeliyində olan ümumi təhsil müəssisələrinə, məktəbəqədər təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun, həmçinin şagirdlərin sinifdən-sinfə keçirilməsinin və yerdəyişməsinin həyata keçirilməsini təmin etmək;

3.1.39. təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görmək, uşaq və şagirdlərin idman yarışlarında, turist yürüşlərində iştirakına, onların texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək verilməsini təmin etmək;

3.1.40. fiziki tərbiyə dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsi, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığının təmin edilməsi, habelə təhsilalanların müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsinə şəraitin yaradılması üçün tədbirlər görmək;

3.1.41. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.42. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.43. təhsil müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə qoşulmasını və ondan istifadəsini təmin etmək;

3.1.44. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.45. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.46. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.47. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.48. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, pozulmasının qarşısını almaq;

3.1.49. Nazirlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

*Ardı 5-ci səhifədə*

3.1.50. Nazirliyə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.51. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Nazirlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.4. təhsildə inkişaf və innovasiyalar üzrə hüquqi və fiziki şəxslərin qrant layihələrində iştirakını təşkil etmək;

4.1.5. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək;

4.1.6. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.7. təhsil işçilərinin həvəsləndirilməsi, mükafatlandırılması, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

4.1.8. dövlət təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təkliflər vermək;

4.1.9. dövlət təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təkliflər vermək;

4.1.10. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin muxtar respublikada keçirilməsini təşkil etmək;

4.1.11. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.12. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri müəyyən edir. Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikası Konstitusiyasının 139-cu maddəsinin I hissəsinin 5-ci bəndinə, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndinə və 5-ci maddəsinin II hissəsinin 7-ci bəndinə əsasən vəzifəyə təyin və vəzifədən azad olunan nazir rəhbərlik edir. Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün nazir şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Nazir müavinləri nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. nazir müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələrini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallarda Nazirliyin strukturuna daxil olan qurumların, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;

5.5.5. Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyətinə nəzarəti təşkil edir və onların işinin əlaqələndirilməsini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini, əməyin ödənişi fondunu və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.7. tabeliyində olan publik hüquqi şəxslərin (Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq edir, onların ştat cədvəlinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Nazirliyin Aparatının işçilərini, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini (Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müəyyən etdiyi hallar istisna olmaqla) və onların müavinlərini, strukturuna daxil olan qurumların yerli bölmələrinin rəhbərlərini, vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.9. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.10. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.11. Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq sənədləri imzalayır;

5.5.12. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.13. muxtar respublika büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.14. muxtar respublika büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyində olan təhsil müəssisələrinin göstərdiyi ödənişli təhsil xidmətlərindən və tabeliyində olan digər qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.15. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.16. Nazirliyin Aparatının işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə, habelə strukturuna daxil olan qurumların yerli bölmələrinin rəhbərlərinə qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir.

5.6. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.7. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.8. Nazirlikdə nazirdən (Kollegiyanın sədrindən), nazirin müavinlərindən, Nazirliyin digər rəhbər işçilərindən ibarət tərkibdə Kollegiya yaradılır. Nazirliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin Kollegiyası üzvlərinin sayını və Kollegiyanın tərkibini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin Kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları;

5.11.6. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

5.11.7. bu Əsasnamənin 5.11.1-5.11.6-cı yarımbəndlərinə uyğun olaraq Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.12. Nazirliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda nazir bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edə bilərlər.

5.14. Nazirliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.15. Nazirlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

5.16. Müvafiq sahədə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi və istiqamətləndirilməsi məqsədilə Nazirlikdə ictimai əsaslarla fəaliyyət göstərən şuralar yaradıla bilər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 19 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin STRUKTURU

1. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparatı (şöbələr və sektorlar)
2. Şəhər (rayon) təhsil şöbələri

# Ordubad rayonunda Novruz bayramı qeyd olunub



*Martın 21-də Ordubad rayonunda xalqımızın milli-mənəvi dəyərlərini, adət-ənənələrini özündə yaşadan, qədim və ən əziz bayramlarından olan Novruz bayramı münasibətilə təntənəli bayram keçirilib.*

Bayram tədbirində Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli, icra hakimiyyətinin kollektivi, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyət nümayəndələri, gənclər və rayona təşrif buyurmuş qonaqlar iştirak ediblər.

Ordubad rayonunun məktəbdənkənar müəssisələrinin dərnəkləri tərəfindən hazırlanmış əl işləri, xonçalar, səmənilərlə bəzədilmiş meydanda təşkil olunan bayram şənliyində Novruz adətinə uyğun olaraq Dədə Qorqud və Bahar qızı hər kəsi salamlayıb, xeyir-dua verərək, Novruz bayramının xalqımıza uğur, bol ruzi-bərəkət, sülh və əmin-amanlıq gətirməsini arzulayıb, bayram tonqalı yandırılıb. Ordubadda qədim "Novruz" adət-ənənələrinin əsas atributu olan "Xan" və Novruzun personajları Keçəl, Kosa şənliyə gələrək söhbətləri ilə əsl bayram ab-havası bəxş ediblər. Rayon Mədəniyyət İdarəsinin tabeliyindəki folklor və rəqs qruplarının, solistlərinin ifasında rəngarəng və maraqlı rəqs, musiqi və folklor nümunələri, rayon Təhsil Şöbəsinin nəzdində fəaliyyət göstərən Uşaq-gənclər idman məktəbinini gimnastları və idmançıları tərəfindən xüsusi nömrələr nümayiş olunub.







# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



## Bütöv Azərbaycan soyqırımı qurbanlarının xatirəsinə ucaldılan ən böyük abidədir

### Prezident İlham ƏLİYEV:

***"Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil Parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır."***

"Bir insan erməni ola bilər, ancaq bir erməni insan ola bilməz..." Tarixin ağ-qara səhifələrini vərəqlədikcə tez-tez xatırladığımız alman filosofu, siyasi nəzəriyyəçi, jurnalist Karl Henrix Marksın bu sözlərinə haqq qazandırmaya bilmirik. Bu bədnam toplumun Azərbaycan xalqına qarşı əsrlər boyu davam edən əsassız ərazi iddiaları, təcavüz və soyqırımı siyasəti ötən yüzilliyin əvvəllərindən etibarən özünün pik həddinə çatdı. Heç bir əsası olmayan cılız təfəkkürün, mənfur amalların, məkrli niyyətlərin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaq idi.

Ermənilərin törətdikləri qətliamlar içərisində 1918-ci il hadisələri amansızlığı, vandalizmliyi ilə tarixin qanlı səhifələrindən birinə çevrilib. Həmin hadisələrdə minlərlə soydaşımız erməni zülmünün qurbanı olub. Mart ayının 30-da Bakı Sovetinin rəhbərlik etdiyi bolşevik-daşnak hərbi dəstələri Bakı şəhərində türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirməyə başladı. Üç gün davam edən Bakı qırğınları zamanı əks-inqilabçı və müsavatçı adı ilə 12 min dinc əhali amansızlıqla qətlə yetirildi.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Milli Hökumət erməni-daşnak qüvvələrinin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi cinayətləri araşdırmaq üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Həmin komissiya törədilən qətliamlara aid 36 cilddən ibarət sənədlər toplusu hazırladı.

Azərbaycanın bütün bölgələrində – Bakıda, Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda eyni ssenari ilə əhali ağır işgəncələrlə qətlə yetirilirdi. Həmin illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür, yaşayış məntəqələrini yandırır və ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşilikləri törətməkdə Andranik Ozanyan, Dro, Njde, Doluxanov, Yapon və digər cəlladların başçılıq etdikləri dəstələr böyük rol oynayıblar. Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olub və onları qələmə alıb. Onun "Qanlı günlərimiz" əsərindən – gündəlik qeydlərindən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 74 min azərbaycanlı ən vəhşi üsullarla öldürülüb. Naxçıvanda o zaman ilk soyqırımını Culfa rayonunun Yaycı kəndində törədiblər. Erməni qaniçənlər Araz çayı sahilindəki 4 minə yaxın əhalisi olan Yaycı kəndini yerləyeksan edib, kənd əhalisinin 2000-2500-nü qətlə yetirib və Araz çayına töküblər. Cəsədlərin sayı o qədər çox olub ki, burada böyük bir qəbiristanlıq yaranıb. Həmin vaxt Nehrəm ətrafında məğlub edilmiş Andranikin dəstələri geri qaçmağa məcbur olub. Ordubada doğru irəliləyən erməni qaniçənlər qarşısına çıxan kəndləri dağıda-dağıda 2 min azərbaycanlını öldürüblər. Ordubad ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərk-silah olunub, xeyli hissəsi qətlə yetirilib. Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilib. Arxiv materiallarında ermənilərin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində isə 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin qətlə yetirildiyinə dair məlumatlar yer almaqdadır.

Tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kəndin də erməni komitəçilərinin hücumuna məruz qaldığı və əhalisinin də Araz çayına atılması ilə bağlı məsələlər göstərilir. Müsəlmanlar tərəfindən ələ keçirilən ermənilər Naxçıvanda və onun bütün kəndlərində türklərin qətlə yetiriləcəkləri və hamısının Araz çayına atılacaqlarına dair əmr aldıqlarını etiraf etmişdilər. Erməni dəstələrinə yazılı olaraq göndərilən əmrdə deyilir: "Şərur əhalisini Araz çayına atmaq üçüncü alay komandanlığının əsas vəzifəsidir". Digər bir fakt: Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Onlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idi. 15 mindən artıq erməni quldurunun silahsız, müdafiəsiz insanların üzərinə hücumu nəticəsində bir gün ərzində 10 mindən artıq günahsız insan qətlə yetirildi.

1915-1921-ci illər arasında Cənubi Azərbaycanda ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90 mindən çox idi. Bütün bunlarla yanaşı, naxçıvanlılar mərdliklə döyüşüb, Naxçıvanın erməni işğalına məruz qalmasına yol verməyiblər. Bununla əlaqədar 20 tabor yaradılıb, onlar silahlandırılıb, III Kalbalı xanın başçılığı ilə 500 nəfərdən ibarət süvari dəstə böyük rəşadət göstərib. Onlar erməni daşnaklarına dəfələrlə layiqli cavab verib, ərazidən qovublar.

Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti tam açılıb, həmin hadisələrə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Dahi şəxsiyyət torpaqlarımızın işğalının qarşısını alıb, qüdrətli dövlət və güclü ordu yaradıb, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşası istiqamətində tədbirlər görüb. Ulu Öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasəti dərindən təhlil edilib, 31 martın "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunması qərara alınıb.

Aparılan araşdırmalar nəticəsində 1918-ci il hadisələri zamanı ermənilərin törətdikləri kütləvi insan qətllərini göstərən faktlar, saysız-hesabsız insan sümükləri və digər maddi sübutlar aşkarlanıb. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi yaradılıb. Hər il minlərlə insan bu məkanı ziyarət edərək qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsini yad edir.

2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək xalq-ordu-lider birliyi başıpozuq bir toplumun ikiyüzillik özbaşınalıqlarına son qoydu, məğrur Azərbaycan əsgər-zabiti düşmənin keçilməz sandığı Füzuli səddindən keçib alınmaz dediyi Şuşa qalasınadək şərəfli zəfər yürüşü etdi. 2023-cü il sentyabrın 19-20-də 24 saatdan az bir müddətdə aparılan lokal xarakterli antiterror tədbirləri ilə isə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin edildi, bir nəfər belə mülki insana zərərin toxunmadığı bu humanist prinsipli əməliyyatla Azərbaycan vaxtilə Mart, Xocalı və digər soyqırımlarını törədən quldur topluma, bu faciələrə göz yuman havadarlara insanlıq, haqq-ədalət dərsi keçdi...

Ümummilli Liderimiz Heydər Əliyevin tarixi sözləri bu gün Ali Baş Komandanın siyasi qətiyyəti sayəsində həqiqət, gerçəklik günəşi kimi parlayır: ***"İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır".*** Bəli, Xocalılı, Xankəndili, Şuşalı bütöv Azərbaycan tarixboyu erməni vandalizminə məruz qalan xalqımızın nümayəndələrinin, bütün soyqırımı qurbanlarının, o cümlədən 1918-ci il hadisələrində vəhşicəsinə qətlə yetirilənlərin xatirəsinə ucaldılan ən böyük abidədir. Məğrurluğundan güc aldığımız, fəxarət hissi ilə köksümüzü dolduran əbədiyaşar abidə...

**Nail ƏSGƏROV**



## Qan yaddaşı

... Hər cür dəhşətlər görüb bu qoca dünya, özünün yaşı qədər haqsızlıqlara şahid olub. Hər şeyin zirvəsini görüb bu qoca dünya – insanlığın da, barbarlığın da...

1918-ci ilin mart soyqırımı o günə qədərki dəhşətlərin vəhşəti-zirvəsi kimi yazılıb tarixin qan yaddaşına. O gün yer-göy qan ağlayırdı. Dünya belə qanlı gün görməmişdi. Nə idi bu xalqın günahı? Niyə bu qoca dünya üz çevirmişdi bizlərdən?

Düşünürəm ki, bəlkə, insanlığa xas olan ən yüksək, ən ali hisslərə sahib olmağımız idi günahımız...

Bu ülvi hisslər düz 70 il sonra başımıza bu oyunları yenidən açacaqdı, tarix yenidən təkrar olunacaqdı. Bu qoca dünyada biz o günləri yenidən yaşayacaqdıq. Hələ o günə 70 il vardı...

...İnsan həmişə ucalığa, aliliyə can atır. Bu, İlahi tərəfindən ona verilmiş hüquqdur.

Bəs vəhşətin zirvəsinə ucalmaq necə?

Yeri, yurdu olmayan, kökü bu günə kimi araşdırılıb üzə çıxarılmayan, süfrəmizin çörəyi, torpağımızın bərəkəti, suyu ilə böyüyən "qonşularımızı" biz niyə tanımadıq? Fil qulağındamı yatmışdıq?

Yox! Onların bu riyakarlığını ağlımıza belə yaxın gətirməzdik. Çünki bizim damarlarımızda axan qan Sara xatının qanıdır, Xətai babamızın qanıdır. Bu qan bizə insanlığı öyrədib.

...İnsanlıq və vəhşət.

Hər ikisi Allahın yaratdığı varlığın qəlbindədir. Bu da həyatın cavabı tapılmayan suallarından biri deyilmi?

...Qoca dünya bütün bunları görə-görə bərkiyib, ancaq bu suala cavab tapa bilmir.

...O gün ulu tarixə malik olan xalqımızın ahnaləsi ərşə qalxmışdı. Şaumyanlar, androniklər, əmiryanlar at çapırdılar torpaqlarımızda. İnsan qanı sel əvəzi axırdı. Qoca bilmirdilər, qadın tanımırdılar, uşaq saya almırdılar – dünya buna necə dözürdü, İlahi?

O gün – martın 30-dan 31-nə keçən gecə bolşevik-daşnak birliyi Bakıda nələr etmədi?

Xalqımızın böyük oğlu Nəriman Nərimanov sonralar yazacaqdı: "Müsəlman, hətta bolşevik olsaydı belə ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağı kifayətdir".

Sözə, ifadəyə diqqət kəsilin.

Günahımız müsəlman olmağımızmış, bəlkə...

Allah sənə rəhmət eləsin "Biçarə Vətən", – deyən ulu ustad Mirzə Cəlil!

...Bünövrəsi Bakıda qoyulan qırğınlar hələ sentyabrın ortalarınadək çəkəcəkdi. Hələ qarşıda Quba vardı, Kürdəmir vardı, Salyan, Lənkəran, Şamaxı vardı hələ...

...Tükürpədən faktlar bağır çatladır: 42 min soydaşımız öldürülüb. 144 kənd dağıdılıb. "Kaspi" mətbəəsi, "Açıq söz" qəzeti redaksiyası, İsmailiyyə binası yandırılıb. Təzə Pir məscidi top-tüfəng atəşinə məruz qalıb.

...Tarix dil açıb danışır:

"Mən erməni xalqının qəhrəmanı və müdafiəçisiyəm. Mən buraya qayda yaratmaq və sovet hakimiyyəti qurmağa gəlməmişəm... Mənə Xəzər dənizindən Şahdağınadək olan ərazilərdə bütün müsəlmanları məhv etmək əmri verilmişdir". Bu sözlər daşnak dəstəsinin komandiri Hamazaspa məxsusdur.

Baxın dəhşətin fitrətinə!

Baxın "zavallı xalqın" sərkərdəsinin öz iç üzlərini açıb tökən sözlərinə.

Baxın onların böyük bolşevik qardaşları ilə birlikdə yeritdikləri anti-Azərbaycan siyasətinə.

Yadıma ermənilərin dənizdən-dənizə "böyük Ermənistan" yaratmaq xülyası düşür... Bir qədər keçmişə ekskurs edək:

Hansı "böyük Ermənistan"dan söhbət gedə bilər ki, I yüzillikdə Romanın Ermənistan üzərində qələbələrinin şərəfinə Roma pullarının üstündə "böyük Ermənistan" rüsvayçılıqla Roma imperatorunun dizi altında oturmuş qadın obrazında itaətkar öküz, imdad diləyən erməni döyüşçüsü təsvir edilmişdir? O necə "böyük Ermənistan"dır ki, I əsrin 30-50-ci illərində "böyük Ermənistan"ı İberiya şahzadələri idarə etmişlər?

Bu, bir həqiqətdir: İnsanlar nədən qorxurlarsa, o təhlükəyə əvvəlcədən hazırlıq görürlər. Elə buna görə də bu mənfur "zavallıların" özlərinə havadar axtarmaq cəhdləri, həmin havadarlar qarşısında müxtəlif donlara girmələri adi haldır. Daha bir ikrahedici mənzərə: Bu zatıqırıqlar hara üz tutsalar öz inadlarından əl çəkməyərək istədiklərinə nail ola bilirlər. Tərtib etdikləri xüsusi proqram bu yolda onların köməyinə çatır. Müxtəlif qiymətli hədiyyələr, qaraqaş, qaragöz erməni qızları da xüsusi rol oynayır. Nə olursa-olsun, ancaq istədiklərinə çatmaq ehtirasları onları dünyanın hər yerinə səpələyir, bu yolda hər bir şərəfsizliyə qol qoyurlar ki, bu da ermənilərin xarakterinə məxsus keyfiyyətlərdəndir. Özlərinə havadarlar tapdıqdan sonra onların ərazi iddiaları başlayır. Bu iddialar içərisində qədim tarixə malik Azərbaycan torpaqları öndə durur. Ancaq bu da minilliklərin sınağından çıxmış atalar sözüdür: "Yaxşı ki, Allah dəvəyə qanad verməyib..."

...Biz böyük olmuşuq. Bu gün də böyüklüyümüzü saxlayırıq. Sabah da böyük olaraq qalacağıq. Çünki bizim qanımızla gəlib bu böyüklük.

Tariximizin bütün ağrılarını, əzablarını qəlbində gəzdirən Ulu Öndərimiz Heydər Əliyev 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 martı "Azərbaycanlıların Soyqırımı Günü" kimi elan etdi.

Bu, xalqın soyuna, kökünə, özünə qayıdışı idi.

Bu özünə, gələcəyə inam idi.

Bu inam yaşadır Odlar yurdunu. Bunun ifadəsidir ki, ötən illər ərzində ölkəmizdə bu istiqamətdə xeyli iş görülmüşdür. Doğma Azərbaycanımızın haqq səsini dünyaya çatdırmaq, 1988-ci ildə yenidən ermənilərin əsassız torpaq iddiaları ucbatından yaradılan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmaq, düşmən tapdağı altında olan torpaqlarımızın sülh yolu ilə geri alınaraq ərazi bütövlüyümüzü təmin etmək, bunun üçün aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlığı gücləndirmək kimi məsələlər prioritet vəzifə kimi diqqətdə saxlanılmışdır.

Ötən dövrdə bütün bunları nankor ermənilər də görürdülər, ölkəmizin iqtisadi və hərbi qüdrətinin getdikcə güclənməsi, Azərbaycanın dünya siyasi arenasında söz sahibi olmasından, böyük iqtisadi səmərə verən qlobal layihələrə qoşulmasından, Ermənistanın isə bu layihələrdən kənarda qalması ilə razılaşmaqdan başqa çarəsi olmamasını yaxşı dərk edirdilər.

Ermənistan onu da görürdü ki, bu gün Azərbaycanın güclü Ordusu var. Cənubi Qafqaz regionunda söz sahibi, qüvvə sahibi olan bu ordu Ali Baş Komandanın əmri ilə qısa bir vaxtda torpaqlarımızı azad etmək qüdrətinə malikdir. Elə 2016-cı ilin Aprel döyüşləri bunu bir daha göstərdi. Ermənistan Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun 2017-ci ildə keçirilən möhtəşəm paradından da xəbərsiz deyildi. Bununla vandallar xalqımızın mübarizliyini, öz hüquqlarını qorumaq əzminin günü-gündən yüksəldiyini, hər an düşməndən qisas almağa hazır olduğunu, haqq işimizin qalib gələcəyinin ifadəsi kimi böyük ictimai-siyasi əhəmiyyət daşıdığını da görürdü...

2020-ci ilin sonlarında bir daha gördülər...

**Muxtar MƏMMƏDOV**

## Yaycı yaşayır

Görkəmli dövlət xadimi Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı xalqımıza qarşı törədilmiş soyqırımı hadisələrinə verilən ən real qiymət, həmin hadisələri unutmamaq, illər boyu qonşuluq etdiyimiz vandalların, çörəyi dizində olanların iç üzünün tanınması baxımından atılmış mühüm addımlardan biridir. Bu da bir həqiqətdir ki, son iki yüz ildə ermənilərin qədim Azərbaycan ərazilərinə köçürülməsi və onların zaman-zaman dinc insanlarımıza qarşı törətdikləri soyqırımı faciələri tariximizin ən qanlı səhifələridir. Bu faciələr içərisində miqyasına görə ən böyüyü 1918-ci ilin mart soyqırımıdır ki, bu da paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin digər rayonlarını da əhatə etmişdir.

Həmin dövrdə Naxçıvana yiyələnmək xülyasına düşən daşnaklar burada da yerli əhaliyə qarşı vəhşiliklər törətmiş, xüsusilə Culfa rayonunun Yaycı kəndində bu faciənin miqyası daha böyük olmuşdur. Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, yazıçı-publisist Fərəc Fərəcov 2002-ci ildə nəşr etdirdiyi "Yaycı soyqırımı" kitabında haqlı olaraq Yaycı soyqırımını "ən böyük qətliam" adlandırır. 31 mart azərbaycanlıların soyqırımı ərəfəsində Fərəc Fərəcovla bir daha həmin dövrdə Yaycı kəndində yaşanan faciəli hadisələrlə bağlı söhbət etdik.

Müsahibimin sözlərinə görə, 1918-ci il iyun ayının 14-də Culfa rayonunun Yaycı kəndi erməni Andranikin quldur dəstələrinin qəfil hücumuna məruz qalmışdır. Hücumdan əvvəl isə hiyləgər düşmən, yaxın qonşu kəndlərdə məskunlaşan Aza və Darkənd yaşayış məntəqələrinin erməni sakinləri Yaycıya gələrək kəndin ağsaqqallarına, başbilənlərinə demişlər: "Andranikin sizlərə heç bir xətəri olmayacaq. Onlar buradan sakitcə keçib gedəcəklər. Arxayın ola bilərsiniz". Əlbəttə, kəndin ürəyiaçıq insanları həmişə get-gəl etdikləri ermənilərin bu "səmimi" sözlərinə inanırlar. Beləliklə, erməni quldur dəstəsi İran ərazisindən Culfaya adlayaraq Yaycıya hücum çəkmiş, kəndi qırıb-çatmış, evlərə od vurub yandırmış, əhalini qılıncdan keçirmişdir. Təxminən, 2500 Yaycı sakini amansızlıqla qətlə yetirilmişdir. Kəndə hücum gündüz vaxtına təsadüf etdiyindən əli iş tutan insanların çoxu çöl-təsərrüfat işlərində idi. Buna görə də faciəyə düçar olanların çoxu uşaqlar, qadınlar və qocalar olmuşdur.

Müsahibimiz onu da qeyd etdi ki, həmin gün kənddə onlarla ailə tamamilə məhv edilmiş, yüzlərlə insan şikəst qalmışdır. Onlardan bir neçəsi son illərdə dünyasını dəyişmişdir. Ağır işgəncəyə məruz qalmış Yaycı kənd sa-




kinlərindən biri – qolu yox Yasəmən idi. Onun oğlu Əbülfəz Süleymanov deyirdi ki, anamgil 8 bacı olub, onların 6-nı ermənilər Arazın kənarında öldürmüşdülər. Sona adlı bir bacısını İran tərəfə keçirə bilmişdilər. Yazıq qadının bir qolunu da erməni cəlladları həmin zaman vurub yerə salmışdılar.

Bu ürəkağrıdan söhbətdən sonra Fərəc müəllim Yaycıda baş verənlərin ermənilərin xalqımıza qarşı törətdiyi əsl soyqırımı olduğunu bir daha qeyd edərək vurğuladı ki, şükürlər olsun, ötən əsrin sonunda müstəqilliyimiz yenidən bərpa edildi, milli tariximizin araşdırılması, yenidən yazılması istiqamətində böyük işlər görüldü. Yaycı kəndində də yaşanmış həmin hadisələrin unudulmaması, soyqırımı qurbanları xatirəsinin əbədiləşdirilməsi üçün 2007-ci ildə kəndin mərkəzində abidə ucaldılıb.

2020-ci ildə 44 günlük Vətən müharibəsi, 2023-cü ildə keçirilən antiterror əməliyyatları ilə ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan Ordusu sübut etdi ki, nahaq tökülən qan yerdə qalmır. Bu gün artıq Qərbi Azərbaycana qayıdış, erməni işğalında qalmış 8 yaşayış məntəqəsinin azad edilməsi istiqamətində məqsədyönlü tədbirlər görülür. Bu məqsədlərə çatmaq üçün dövlətimiz bütün mümkün olanları edir.

**Aidə İBRAHİMOVA**

## Hörmətli məktub

### *Culfa rayonunun Yaycı kəndindən Füzuliyə uzanan şərəfli yolun qəhrəman şəhidi Məzahir Nəcəfovun əziz xatirəsinə*




Salam, mənim yasəmən ətirli anam. Bilirəm ki, sənə 1994-cü ilin yanvarında göndərdiyim məktubu hələ də saxlayırsan. Hər gün oxuyub gözyaşı tökürsən, o məktubun son olduğunu düşünüb. Amma elə deyil, mənim kefim həmin ildən bu yana heç açılmırdı, əlim gəlmirdi sizə yazım. Nə yazardım axı uçulan saraylardan, xarabaya çevrilən məscidlərdən, məzarları dağıdılan soydaşlarımızın narahat ruhundan, ya düşmən tapdağında inləyən torpaqdan?

Yaza bilmirdim, ana, bunları sizə deyə bilmirdim. Səbirlə gözləyirdim bizim davamçılarımızın gəlib ruhumuzu azad edəcəyi günü. Qardaşımın balası dünyaya gələndə çox sevindim. Adımı ona verdiyiniz üçün sağ olun. Arzu edirdim ki, o gəlib ruhumu azad edənlərdən olsun. Mənim haqqımda danışdığın nağıllarla böyütdün Məzahiri. O böyüyüb əyninə hərbi forma geyinəndə mən onu şərəflə göylərdən izlədikcə ruhum ağ göyərçinə dönüb qapımıza gəldi. Həsrətlə gözləyirdim onu Füzuli torpağında əlində üçrəngli bayraqla görəcəyim günü. Düz 26 il gözlədim, amma ümidimi itirmədim. Və həmin gün gələndə, düşmən postlarına atılan mərmilərin səsini eşidəndə, illərdir, öz doğmalarının həsrətini çəkən torpaqda irəliləyən tankların izlərini görəndə bildim ki, azad olur narahat ruhlarımız. Sinəsindən vurulan şəhid oğulların dostlarının çiynində necə daşındığını, əsgərinə "ardımca", – deyən zabitləri görəndə, Vətən müharibəsində Məzahirin qəhrəmanlığına şahid olanda bir daha anladım ki, illərdir, bu xalq bu günü necə səbirsizliklə gözləyirdi. Mən günlərlə Məzahirin başı üstündə dolanıb onu izlədim və o, evimizə sağ-salamat qayıdanda çox sevindim. Ana, ürəyin bir dəfə yanmışdı axı. Ona görə dua edirdim ki, Məzahir sağ qayıtsın evimizə. Vətən savaşı qələbə ilə başa çatanda mənim illərdir, nigaran olan ruhum da dincəldi. Mənim Yasəmən anam, ürəyin sızlamasın ki, mənim məzarım yoxdur. Sən hər şəhid məzarını mənim məzarım bil. Onların hər birini mən hesab elə. Bil ki, mənim məzarım bir ovuc Vətən torpağıdır. Dağlarda lalələr, həyatimizdə ağaclar çiçək açanda bil ki, mən gəlmişəm. Hər an səni duyuram, unutma, ana. Ağlama mən şəhid oldum deyə, ürəyin yananda adıma salınan bulağın sərin suyundan iç, kədərləndə qarşısına büstüm qoyulan məktəbə get, oradakı firavan, azad Vətənin uşaqlarına bax. Əmin ol ki, bu Vətənin körpələri azad və bütöv Azərbaycanın övladları kimi böyüdükcə bizim adımız da yaşayacaq, sanımız bulaqların gözündən axan su kimi olacaq.



26 il mənim narahat ruhum gəzdi, dolaşdı bu Vətənin göylərində. Amma üç ildir, ruhum şaddır. Sevinirəm, çünki uğrunda canımdan keçdiyim Vətən torpağında öz balalarımız dolanır. Həyat yenidən qayıdır Qarabağa, bax indi kefim yüz biri vurur. İllərdir, düşmən tapdağında olan yurdumuz indi yenidən dirçəlir. Bu torpağın sahibləri var olduqca, qurub-yaratdıqca bizim də ruhumuz şad olacaq.

**Ramiyə ƏKBƏROVA**

# Türkiyə Cümhuriyyətinin İğdır şəhərində “Naxçıvan fotolarda” adlı fotosərginin açılışı olub




Martın 16-sı səhər erkən media nümayəndələri olaraq “Şərq qapısı” qəzeti redaksiyasının önünə toplandıq. Çox həyəcanlı idik. Axı əsrlərin ağır sınaqlarına sinə gərərək öz təbiət gözəlliyini, tarixiliyini qorumağa müvəffəq olan bu doğma diyarı fotolar vasitəsilə qardaş ölkədə sərgiləyəcəkdik. Uzun yola şirin söhbətlərlə körpü salırıq. İğdır şəhərinə fotosərgi üçün getdiyimizi bilən Sədərək gömrük-keçid məntəqəsinin əməkdaşları uğurlu yol arzulayıb keçidimizi sürətləndirdilər. Azərbaycanın Türkiyə ilə yeganə quru sərhədi olan Dilucu sərhəd-keçid məntəqəsindən keçərək 14 nəfərlik heyətlə İğdıra doğru yol alırıq. Bu yolu həm ticarət, həm səyahət məqsədilə dəfələrlə getmişik. Amma budəfəki gedişdə daha sevincli və qürurlu idik.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlərin davamı olaraq “Naxçıvan fotolarda” adlı sərgi Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğu, “Şərq qapısı” qəzeti və İğdır Azərbaycan Evi tərəfindən təşkil olunmuşdu. Nəhayət, sərginin açıldığı ünvana yetişirik. İğdır Azərbaycan Evi bu dəfə Naxçıvan ab-havasına bürünmüşdü. Dağlarımızın əzəmətini, şəlalələrimizin gözəlliyini, çaylarımızın şaqraq səsini, düzənliklərimizin gülünün, çiçəyinin ətrini canlandıran 57 foto sərgilənirdi.

Fotosərgidən əvvəl Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Malikqızı, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, Türkiyənin İğdır vilayətinin valisi Ercan Turan, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası İdarəsinin rəisi Vüsal Ələkbərli, İğdırın millət vəkili Cantürk Alagöz, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli, “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova, İğdır Azərbaycan Evinin rəhbəri və Beynəlxalq Qarabağ Təşkilatının koordinatoru Ziya Zakir Acar çıxış edərək bu kimi tədbirlərin iki qardaş ölkənin mədəni əlaqələrinin möhkəmləndirilməsinə töhfə olduğunu qeyd edib, Naxçıvanın zəngin turizm potensialının təbliği baxımından əhəmiyyətli olduğunu bildirdilər.

Təəssüratlarını bizimlə bölüşən Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya “Naxçıvanı tanımayan iğdırlı, İğdırı tanımayan naxçıvanlı qalmasın!” devizi ilə bundan sonra da keçiriləcək tədbirlərin mədəni əlaqələrin daha sıx qurulmasına xidmət edəcəyini bildirdi. İğdır və Naxçıvanın oxşar və yetərincə kəşf edilməmiş turizm ehtiyatlarının olduğuna diqqətçəkən Baş konsul perspektivdə təhsil və turizm sahəsində həyata keçiriləcək tədbirlərin iqtisadi ticarət əlaqələrinə də mühüm töhfə verəcəyini qeyd etdi.

“Şərq qapısı” qəzetinin fotomüxbirləri – Əli Xudiyev, Əsəd Səfərov və Zülfüqar Qurbanlının Naxçıvanın təbiətini, mətbəxini, zəhmətkeş insanlarını əks etdirən fotolarından ibarət sərgi iştirakçılar tərəfindən maraqla qarşılandı. “Gurbulaq şəlaləsi”, “100 illik muxtar respublikanın yaşı bilinməyən yadigarları – Haçadağ və Araz çayı”, “Ordubad şəhərinin qədim evləri”, “Naxçıvan qovurması”, “Naxçıvan dağlarının bahar gözəlliyi”, “Naxçıvanın ən uzunömürlü ailəsi”, “Naxçıvan balıqçıları” adlı fotolarla iğdırlılar qiyabi olaraq qədim Nuh yurduna səyahət etdilər. Haçadağın əzəmətinə heyran olduğunu bildirən İğdır vilayətinin valisi Ercan Turan belə tədbirlərin davamlı keçirilməsinə töhfə verməyə hər zaman hazır olduqlarını bildirdi. İki millət bir dövlətin Naxçıvanla İğdırın timsalında ən bariz şəkildə təcəssüm etdiyini vurğulayan İğdır valisi Ercan Turan Haçadağın gündoğumundakı və günbatımındakı fotolarından çox duyğulandığını dilə gətirdi. Naxçıvana səfərində bu qüdrətli dağa qalxacağını bildirən vali fotosərginin Naxçıvanın tanıtımında əhəmiyyətli olduğunu qeyd etdi.





İğdır Azərbaycan Evinin rəhbəri Ziya Zakir Acar Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş fotosərginin son olmadığını və ilboyu İğdırda müxtəlif səpkili tədbirlərin reallaşacağını, həmçinin fotolardan ibarət broşür hazırlanacağını diqqətə çatdırdı.

“Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova muxtar respublikanın 100 illiyinə həsr olunan və Naxçıvanın tanıtımı məqsədi daşıyan fotosərginin Bakı şəhərində və Türkiyənin başqa şəhərlərində də keçiriləcəyini bildirdi.

Fotosərgi Naxçıvan Televiziyası, “APA” və “Baku TV” internet televiziyaları və Türkiyənin media qurumları tərəfindən geniş tamaşaçı auditoriyasına çatdırıldı.

İğdırdan yüksək təəssüratlarla geri döndük. Naxçıvan fotolarla iğdırlı tamaşaçıların alqışını qazana bilmişdi. Təbrik edirəm, əziz həmkarlar! Ulu Naxçıvanımızın təbliğatında bundan sonrakı fəaliyyətinizdə də uğurlar arzulayıram.

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***
***Naxçıvan-İğdır-Naxçıvan***





















# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Culfa rayonunun Qızılca kəndindən olan şəhidimiz Kənan Rzayevin anası Bahar Rzayevanın, Kəngərli rayonunun Xok kəndindən olan şəhidimiz Elmar Möhsümovun anası Hicran Möhsümovanın və Şərur rayonunun Ələkli kəndindən olan şəhidimiz Rauf Qurbanovun anası Sərfinaz Qurbanovanın övladları haqqında xatirələri yer alıb.*

## Kənan Əbdürrəhman oğlu Rzayev

*(12.09.1994-24.10.2020)*

## Fəxr ediləsi oğul





Kənanın xatirələri o qədər çoxdur ki, inanın, danışsam bir dastana sığar. Oğlum ataya, anaya, kənd camaatına, özündən böyüyə də, kiçiyə də hörmət edirdi. Hər kəsə kömək etməyi xoşlayırdı.

Bir qonşum var. Deyirdi ki, müharibə hələ başlamamışdı. Həmin ilin yayında kəndin yolu ilə əlimdə ərik dolu vedrələrlə evə gedirdim. Kənan bir neçə dostu ilə yolda dayanmışdı. Məni gördü. Yaxınlaşıb dedi ki, Münəvvər xala, vedrələri ver mən aparım. Dedim ki, sağ ol, Kənan. Özüm aparacağam. Razılaşmadı. Vedrələri əlimdən aldı. O istidə vedrələri evə qədər gətirdi. Yas mərasimində başsağlığına gələnlərin sayı-hesabı yox idi. Hər kəs də Kənanın belə işlərindən danışırdı. Düzünü deyim ki, belə oğul böyütdüyümlə fəxr edirəm. Ayrı cür övlad idi.




Kənan hərbçiliyi seçdi böyüyəndə. Cəmi üç ay işlədi. Vətən müharibəsi başlayanda Kənanı müharibəyə aparmayıblar. Deyiblər ki, sənin anan əlildir, yoldaşın Özbəkistan vətəndaşıdır, bir övladın var. Səni apara bilmərik. Qayıdıb evə gəlib. Səhər yenidən hərbi komissarlığa gedib. Hərbi komissarlıq yenə razı olmayıb. O da inadından əl çəkməyib. Sonra könüllü yazılaraq müharibəyə gedib. Gedəndə yoldaşına deyib ki, anam bilməsin. Anam o vaxt bilər ki, mən artıq getmişəm.

Müharibədən zəng vurmuşdu. Dedi ki, ana, uşaqlara pul vermişəm. Mən döyüşə gedirəm. O pulları sənə versələr, bilmərsən, alarsan ha. Qəti heç kimdən heç nə alma. De ki, Kənan halal edib. Sanki ürəyinə damıbmış. Dedim ki, almaram, amma elə demə.

Mən Allahımdan çox razıyam. Kənanı mənə verdi, sevindirdi. Sonra verdiyini də öz cənnətinə qəbul etdi. Mən oğlumla fəxr edirəm. Qürur duyuram ki, şəhid Kənanın anasıyam. Vətən sağ olsun!

## Elmar Rövşən oğlu Möhsümov

*(03.12.1997-29.09.2020)*

## Qan tökdüyü torpağına qovuşdu



Elmarım əvəzolunmazdır. Çox mehriban, səmimi, hər kəsin qəlbinə yatan bir uşaq idi. Dörd qardaşdan üçü hərbçiliyi seçdi. Elmar da üçündən biri idi. Hər üçü Vətən müharibəsində iştirak etdi. Bu müharibədə ikinci oğlum qazi, Elmar isə şəhid oldu. Mənim üçün danışmaq çox ağırdır.




Övladlarım hərbçi olduqları üçün xeyir işlərimizdə hamısı bir yerə yığışa bilmirdilər. Qismət elə gətirdi ki, atalarının ad günündə övladlarımın hamısı bir yerə yığışdı. Atasına və mənə gəlişini sürpriz etdi. Gəlməyindən xəbərimiz yox idi. Hamımız oturmuşduq. Birdən Elmar içəri girdi. Sanki dünyanı bizə verdilər.

Ad günündə yedilər, içdilər, dedilər, güldülər. Elmar özü ilə bir bayraq gətirmişdi. Onu divara asaraq nəvəmin şəklini çəkdilər. Mən bayrağı sevirəm. Amma o bayrağı gördüm, niyəsə narahat oldum. İçimdə dedim ki, bu bayraq evlərə nə üçün aparılır? Mənim narahatçılığımı görən kimi yanıma gəldi. Dedi ki, ana, niyə narahat olursan? O bayraq bizim qürurumuzdur.



Elmar öz bayrağını evimizə özü gətirdi. Bax həmin gün Elmarın sonuncu gəlişi, sonuncu görüşü idi. Amma bizim üçün də çox yaxşı gün oldu. Çünki heç birimizin ad günündə, dediyim kimi, bir yerdə ola bilməmişdik.

Sonuncu danışığımız sentyabrın 29-u oldu. Gecə saat iki idi. Elmar elə ruh yüksəkliyi ilə, elə gülə-gülə danışırdı ki... Onun belə danışmağı məni arxayınlaşdırdı. Ancaq ağlıma da gəlmirdi ki, Elmar orada şəhid olar. Dedi ki, ana, ön xətdəyik. Mənə zəngin çatmaya bilər. Narahat olma. İki ay mənim balam gəlib çıxmadı. Amma ümidimi də üzmürdüm. Onun mənə dediyi "Zəng çatmasa, narahat olma" sözləri iki ay təsəllim oldu. Dedi ki, ana, inşallah, qələbə çalıb gələrik. Bizə dua et. Dedim, bala, hər an sənə dua edirəm. Cavab verdi ki, ana, təkcə mənə yox, bütün hərbçilərimizə dua et. Bilmədim ki, balamla son danışığımızdır. Mənim balam uğrunda qan tökdüyü torpağına qovuşdu!

## Rauf Vahid oğlu Qurbanov

*(05.10.1995-05.10.2020)*

## Ad günündə şəhid olan Rauf





Rauf çox sakit uşaq olub. Onun səhv hərəkətini xatırlamıram. Həm də çox ciddi idi. Uşaqlıqda heç bir əziyyətini də görmədim.

Rauf balaca vaxtından həm də çox qoçaq, çox heyvansevər idi. Onlara qulluq etməyi çox sevirdi. Hər yerdən quş alıb gətirirdi.

Raufun hərbiyə marağı orta məktəb illərindən idi. Sinif yoldaşları ilə birlikdə qərarlaşdırmışdılar ki, hərbi liseyə getsinlər. Kəndimizdən olan şəhid Elton da Raufla birgə gedib-gəlirdi. Başqa uşaqlar da az deyildi.

Rauf orta məktəbi çox yaxşı oxuyurdu. Düşündük ki, onun ali məktəbə qəbul olması heç də çətin deyil. Atası da, mən də deyirdik ki, Rauf, çox yaxşı oxuyursan, əvəzini də görəcəksən. Deyirdi ki, ana, mən hərbçi olacağam. Biz də heç nə demədik. Artıq balam öz seçimini etmişdi. İstəyinə qarşı çıxa bilmədik.

Mənim iki oğlum var. Rauf qardaşı ilə çox mehriban idi. Bizimlə bölüşmədiklərini qardaşı ilə bölüşürdü. Bir-birlərini çox sevirdilər. İndi belə biz Raufa aid olan bir çox şeyləri qardaşından eşidirik.

Müharibəyə getməyini bizdən gizlədirdi. Gah deyirdi Bakıdayam, gah da ki, Beyləqanda. Sonuncu danışığımız oktyabrın beşində oldu. Həmin gün onun ad günü idi. Səhər saat 10-11 arası olardı. Kefini soruşdum. Cavab verdi ki, ana, narahat olma. Hər şey yaxşıdı. Telefonda danışdıqca bir uğultu eşidilirdi. Dedim, Rauf, o nə səsdir? Cavab verdi ki, ana, narahat olma, dağın döşündəyik. Küləyin səsidir. Həmin gün – ad günündə şəhid oldu mənim balam. Biz Raufun şəhidlik xəbərini noyabrın 3-də aldıq. Noyabrın 6-sı nəşi Naxçıvana gətirilərək Şərurdakı Şəhidlər xiyabanında dəfn olundu.



Mənim oğlum bir igid, qəhrəman kimi döyüşərək şəhid adını qazanıb. Qürurlanırıq, çünki Raufu biz böyütmüşük. Vətənə əmanət etmişik. Rauf da Vətənin keşiyində duraraq qəhrəmancasına şəhid olub. Vətən sağ olsun! Vətən sağ olsun ki, bu cür qəhrəmanlar, igidlər yetişsin.



# Şəhid anası: "Şuşada torpağı iyləyəndə övladımın ətrini duydum"

Naxçıvandan olan şəhid ailəsi üzvləri Şuşa səfəri çərçivəsində övladlarının şəhidlik zirvəsinə yüksəldiyi yerləri də ziyarət etdilər. Onlarla Şuşa şəhərində həmsöhbət olduq. Xocavənd rayonunun Qızılqaya yüksəkliyində şəhidlik zirvəsinə ucalan Elnur Zeynalovun anası Məlahət ana oğlunun şəhadət şərbəti içdiyi yerləri ziyarət edib Şuşaya qayıdanda keçirdiyi qürur hissi üzündən oxunurdu, “Ürəyim yansa da, o yerləri görməyi özümə borc bilirdim”, – deyir şəhid anası. Oğlum leytenant rütbəsini alıb xidmətə başlayanda fərəh hissi keçirdim. “Oğul, Vətəni məndən əziz bil ki, daşıdığın formanın da haqqını verə biləsən”, – dedim. Sağ olsun, ayaq açıb yeridiyi torpağı anasından çox sevib canını ona qurban verdi. Bu gün burada gözümdən axan yaşlar Vətən torpağına düşdükcə



hiss etdim ki, torpaq da qəlbimdəki oğul nisgilini duyur. O da dil açıb şəhid valideynlərinə minnətdaram deyir.

Şəhid Ramil Əliyevin atası Qurban ata həyat yoldaşı ilə gəlib müqəddəs şəhərə. Bildirdi ki, Füzulidə igid oğulların düşmənin “keçilməz” sədd adlandırdığı Ohanyan səddini yardığı, əks-hücumun başladığı həmin o müqəddəs yerdə dayananda bir daha necə güclü bir orduya sahib olduğumuza əmin olublar. Vətənin nə qədər əziz olduğunu igid oğullarımız sübuta yetirərək alnımızdakı qara ləkəni sildi, onlar xalqımıza qələbə bəxş edən qəhrəmanlar olaraq daim qəlblərdə yaşayacaqlar. Dövlətimiz var olsun ki, bizə şərait yaratdı gəlib bu hər qarışı şəhid qanı ilə sulanan torpaqları ziyarət etdik.

Amin Gülməmmədovun anası İntizar xanım dedi ki, oğlunun son dəfə nəfəs aldığı yerləri izlədikcə, oğullarımızın necə çətin yollardan keçdiyini gördükcə ürəyi dağa dönür. Bildirir ki, şəhid ailələrinə göstərilən yüksək qayğı sayəsində övladlarımızın son addımını atdığı, son nəfəsini verdiyi yerləri gördük. Aminin nəfəsini duydum oralara ayaq basanda. Onu hiss etdim ki, nur üzlü balamın da ruhu sevinir. Şuşa şəhərini




gəzdikcə hər an Aminimi xatırladım. Axı onun da ən böyük arzusu buranı azad etmək idi. O, arzusuna çatdı, Vətəni bütöv edənlərdən oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bayrağımız uca olsun daima. Şuşada Gövhər ağa məscidində dua edib xalqımıza sülh və əmin-amanlıq dilədim.

Şəhid anası Aytən Eyvazova Vətən müharibəsinin qəhrəmanlarından biri olan İslamın anasıdır. Deyir ki, Şuşanı ziyarət etmək şəhidlərin ruhunu şad edir. Çünki Vətən müharibəsində döyüşən hər bir hərbçinin ən böyük arzusu Şuşanı azad etmək idi. Onlar ürəyimizdə sönməz atəşə dönüb bir ovuc torpağa qurban getdilər. Qələbə qazanıb qayıtdılar evimizə. Yolboyu gəldikcə baxıram uca dağlara, geniş çöllərə, addımbaşı rastlaşdığım xarabaya bənzər kəndlərə. Deyirəm ki, İlahi, biz nə qədər qəddar düşmən ilə qonşuyuq. Necə insanlıqdan uzaq imişlər ki, məscidləri belə tövləyə çeviriblər. Yaşıllıqlar içindən boylanan, düşmənlər tərəfindən xarabaya çevrilən kəndlərə baxanda adamın ürəyi ağrıyır. Amma biz əminik ki, hər qarışı şəhid qanı ilə sulanan torpağımız dirçələcək, abadlaşacaq. Müharibədən keçən dörd il ərzində abadlaşan yurdlarımızı görəndə buna bir daha əmin oluruq. Şuşa şəhərini gəzdikcə, yaradılan gözəllikləri gördükcə ürəyimiz fərəh hissi ilə dolub daşdı. Var olsun dövlətimiz.



Şəhid Əli Əliyevin atası Cavad ata həyat yoldaşı ilə birlikdə Laçın rayonunun Minkəndində şəhid olan oğullarının son dəfə döyüşdüyü yeri ziyarət edib qəhrəman oğullarının azadlığı uğrunda canından keçdiyi torpağa ayaq basanda duyduqları qürur hissi gözlərindən oxunurdu. Cavad ata Əlinin Vətən müharibəsində iştirak etdiyindən danışır. Bildirir ki, illərdir, işğalda inləyən torpaqlar azad olsun deyə yüzlərlə oğul öz canından keçdi. Övladlarımız Vətənin bir parçası olan Qarabağı bizə qaytarmaqla həm də qeyrətimizi, milli dəyərlərimizi özümüzə qaytardı. Bu gün Laçına, Şuşaya, Füzuliyə rahat şəkildə gələ biliriksə, bu, qəhrəman ordumuzun sayəsindədir. Müzəffər Sərkərdənin siyasi gücü hesabına Xocalıya, Xocavəndə həyat qayıdır. Bu Vətən var olduqca, şəhidlik zirvəsinə ucalan oğulların da ruhu şad olacaq. Onlar əbədi yaşayacaq.

Şəhid Ümid Novruzovun övladları Bahadur və Nilay atalarının şəhidlik zirvəsinə ucaldığı Daşaltını ziyarət edib qayıdanda azad Şuşada istədikləri kimi gəzib-dolaşanda onları bütün Azərbaycan şəhidlərinin övladlarının timsalında görürəm. Və deyirəm ki, bu gün bu bayraq Şuşa, Xankəndi səmasında qürurla dalğalanırsa, bu sizin kimi övladların atalarının canı bahasına mümkün olub. Haqqınızı bu xalqa halal edin, ata sevgisini soyuq məzar daşları ilə əvəz edən körpələr. Bu Vətən daim şəhid övladlarına minnətdar olacaq.

**Ramiyə ƏKBƏROVA**

## 27 şəhid ailəsi üzvü Naxçıvandan Şuşaya yola düşüb



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən Şuşaya şəhid ailələrinin səfəri təşkil edilib.

Öncə şəhid ailələri Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə tər çiçəklər düzüblər.

Şəhid valideynləri Qarabağın tacı Şuşada aparılan abadlıq-quruculuq işləri ilə tanış olacaq, qədim şəhərin tarixi yerlərinə baş çəkəcəklər.

Səfərin ilk günündə şəhid ailələrinin üzvləri Füzuli rayonunun Yuxarı Alxanlı, Merdinli, Qaraxanbəyli kəndlərində olub, övladlarının şəhidlik zirvəsinə ucaldıqları yerləri ziyarət edib, Füzulidə aparılan quruculuq işləri ilə tanış olublar. Həmçinin şəhid ailələrinin üzvləri Xocavəndin Qırmızı Bazar qəsəbəsinə də səfər ediblər. Günün sonunda Şuşa şəhərinə çatan ziyarətçilər tarixi Şuşa qalasının gecə görüntüləri fonunda fotolar çəkdirib, şəhid övladlarının xatirəsini bir daha anıblar.




Şəhid ailələrinin Qarabağ səfəri Xankəndi şəhəri və Xocavənd rayonunda davam edəcək.

Qeyd edək ki, ötən ilin dekabrında da bir qrup şəhid ailəsinin Şuşaya səfəri təşkil olunmuşdu. Qarabağa səfərlər bundan sonra da davam etdiriləcək.

“Şərq qapısı” qəzetinin əməkdaşları da səfər çərçivəsində şəhid ailələrini müşayiət edirlər.

# Adət-ənənələrinə bağlı ordubadlıların "Orucun 15-i" mərasimi haqqında eşitmişdinizmi?



Təqribən, 25 il bundan əvvəl atamın işi ilə bağlı ailəmlə birlikdə Bist kəndindən Ordubad şəhərinə köçməli olduq. Onda hələ 5-6 yaşım var idi. Şəhərin 3 nömrəli məktəbində təhsil almağa başladım. Məktəbə gedər-gəlməz sinif yoldaşlarımla xoş, mehriban ünsiyyət qurub, özümə yeni dostlar qazandım. Məktəbə bir gedib, bir gəldiyim Səkinə isə həm ən sevdiyim rəfiqəm, həm də qapıbir qonşumuz idi. O məndən böyük olduğundan məktəbdə mənə göz-qulaq olması üçün anam məni ona tapşırardı. Bir gün məktəbdən qayıdarkən dedi ki, bilirsən, bu gün Orucun 15-i bayramıdı, axşam qonşulara torba atmağa gedəcəyik, sən də bizimlə gələrsən? Sözün düzü, mən Novruz bayramından başqa bayramın olduğunu heç bilmirdim. Çox sevindim. Evə çatar-çatmaz anama "Səkinə deyir ki, bu gün bayramdı. Axşam torba atmağa gedəcəklər", – dedim. Anamdan onlarla birlikdə getməyim üçün mənə də icazə verməsini xahiş etdim. Açığı heç torba atmağın nə demək olduğunu da dərk etmirdim. Amma əyləncəli bir şey olduğunu düşünürdüm, axı həm də uşaqlarla birlikdə zaman keçirəcəkdim. Həmin günü mən deyim 5, siz deyin 15 dəfə Səkinəgilə gedib-gəldim. "Bəs nə vaxt gedəcəyik torba atmağa", – deyə. Səkinə də hər dəfəsində "Bir az da gözlə axşam düşsün, hər kəs iftarını açsın, uşaqlarla yığışaq, gedəcəyik", – deyirdi. İftarın nə demək olduğunu anlamasam da, "Yaxşı", – deyib evə qayıdırdım. Və nəhayət, axşam düşdü. Səkinə torba atmaq üçün məni evdən götürməyə gələndə onu tanımadım. Çünki o oğlan libasında idi.

Mən Ordubaddan Naxçıvana köçərkən artıq böyümüşdüm. Çox maraqlı olan bu mərasimdən də artıq kifayət qədər məlumatım var idi. Axı bilavasitə o mərasimlərdə mən özüm iştirak etmişdim. Yalnız Ordubad şəhəri və onun ətraf kəndlərinə xas olan Orucun 15-i mərasimi müqəddəs Ramazan ayının tən ortasında qeyd olunur. Dini təriqətlə heç bir əlaqəsi olmayan bu bayramı insanların belə təntənə ilə keçirməsi "artıq Ramazanı yarıladıq" anlamına gəlir. Ordubadın dünyagörmüş adamları deyir ki, bu mərasimə bir neçə gün qalmış hər evdə hazırlıq görərdilər. Həmin gün nişanlı qız evinin valideynləri bəyi görmək üçün oğlan evinə gələrdilər. Ailənin üzvlərinə, xüsusilə bəyə hədiyyələr gətirərdilər. Bundan əlavə, Orucun 15-nə qədər heç kimi iftar süfrəsinə dəvət etməzdilər. Əvvəllər bu mərasimdə kiçik-böyük, hər kəs iştirak edər, insanlar bişirib-düşürdükləri azuqələrdən yaxınına, qohumuna, tanışına göndərərmiş. Hər məhəllə bişirib-düşürdükləri naz-nemətlərdən götürər, yaşadıqları məhəllədəki bir ağsaqqal və ya ağbirçəyin evində toplaşıb, könül xoşluğuyla, ağız dadıyla həmin naz-nemətlərlə iftarlarını açarmışlar. İftardan sonra hər kəs öz evinə gedər, uşaqların, gənclərin onların qapılarına torba atmasını gözləyərmişlər. Orucun 15-i mərasimini bu ənənəyə şahid kimi elə mən öz xatirələrimdən danışım. Ordubadda yaşadığım 6 il müddətində hər il bu mərasimi böyük sevinclə gözləyirdim. Biz uşaqlar, xüsusilə torba atmaq ənənəsini çox sevirdik. Tanınmamaq üçün biz qızlar oğlan paltarı geyinər, üz-gözümüzü boyayar, papaq qoyardıq. Məhəllənin 10-15 uşağı yığışar, bir-bir qonşuların qapısını döyərək deyərdik:

*Orucun 15-dir gəldik sizə,*
*Orucun niyazını verin bizə,*
*Xanım, ayağa dursana,*
*Boşqabı doldursana,*
*Oğlun, qızın var olsun,*
*Doğduğun oğlan olsun,*
*Sonbeşiyin qız olsun,*
*Açılsın, sünbül olsun.*



Sonra uşaqlardan biri "Rəbbi Cəlil boşqabı doldurub gəlir" söyləyər, qalanımız isə xor ilə "Miyanpur gəlir, ərik qurusu gəlir, alana gəlir", – deyərdik. Bir sözlə, ürəyimiz nə istəyərdisə, onun adını çəkərdik. Kimsə pay verməsə, onlara tərəf üz tutub birgə söyləyərdik:



*Pay verənin oğlu olsun,*
*Vermiyənin qızı olsun.*

Sonda uşaqların içində ən böyüyü yığılmış payı hər kəs arasında bərabər bölərdi.

Bəzi mənbələrdə deyirlər ki, ancaq Ordubad şəhərinə və ətrafdakı bir neçə kəndə aid olan bu mərasim İbn Mülcəmin (Həzrəti Əlini öldürən şəxs) ölümü ilə əlaqədar keçirilir. Naxçıvan alimlərinin araşdırmalarına əsasən Kəngərli rayonunun Xok kəndindən toplanmış materiallara görə isə bu kənddə orucun çıxmasına 3 gün qalmış məhəlli xarakterli bir mərasim keçirilərmiş. Günortaya kimi evlərdə buğda qovurar, qız-gəlinlər təzə paltarlar geyinər, oğlan uşaqları xoruz döyüşdürər, əyləncəli işlərlə məşğul olardılar. Mərasim günortadan sonra başa çatarmış.

Dədə-babalarımızdan eşitdiyimə görə, sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, oruclug da qadağan idi. Lakin qəlbində Allah sevgisi olan, imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə iş yerlərini itirməmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur idilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olundu, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişdi. Artıq Ramazan bayramı 1993-cü ildən bəri Azərbaycan Respublikasında dövlət səviyyəsində qeyd olunur. Bu gün muxtar respublikamızda digər adət-ənənələrimiz kimi dini dəyərlərimizin qorunub yaşadılmasına dövlət qayğısı yüksək səviyyədədir. İslam dünyasının ayrılmaz hissəsi olan diyarımızda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı təntənə ilə qeyd edilir. Müsəlmanlar üçün mənəvi birlik və həmrəylik rəmzi olan belə tədbirlər bizi əmin-amanlığa, həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin təntənəsinə səsləyir.

**Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar, Azərbaycan Respublikasının Xalq artistləri Rövşən Hüseynov və Həsən Ağasoyla görüş keçirilib



Martın 28-də Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigarın və Azərbaycan Respublikasının Xalq artisti Rövşən Hüseynovun 70 illik yubileyləri, Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoyun doğum günü münasibətilə onlarla görüş keçirilib.

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri vəzifələrinin icraçısı, nazir müavini Həsən Seyidov Asim Yadigarı və Rövşən Hüseynovu 70 illik yubileyləri, Həsən Ağasoyu isə doğum günü münasibətilə təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Görüşdə Asim Yadigara, Rövşən Hüseynova və Həsən Ağasoya Təhsil Nazirliyi tərəfindən qiymətli hədiyyələr, Mədəniyyət Nazirliyi tərəfindən isə plaketlər təqdim olunub.

Görüşün bədii hissəsində Naxçıvan şəhər 8 nömrəli körpələr evi-uşaq bağçasının balaca fidanları və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri rəqs və musiqi nömrələri ilə çıxış ediblər.

## Təhsil Tələbə Krediti Fondu Naxçıvanda ilk dəfə olaraq abituriyentlərlə görüş olub

Martın 27-də Təhsil Tələbə Krediti Fondu Naxçıvanda ilk dəfə olaraq muxtar respublikanın ümumtəhsil məktəblərinin buraxılış sinif şagirdləri ilə görüş keçirib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparat rəhbəri vəzifələrinin müvəqqəti icraçısı Şikar Hüseynov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması ali təhsilə və aztəminatlı təbəqədən olan gənclərə dövlət qayğısının bariz nümunəsidir.

Təhsil Tələbə Krediti Fondunun şöbə müdiri Tehranağa Abdullayev iştirakçıların diqqətinə çatdırıb ki, fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir.

Diqqətə çatdırılıb ki, kreditlər verilərkən giriş balları nəzərə alınmaqla yüksək nəticə



göstərilməsi ilkin şərtdir. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verilir. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ da verilir.

Görüşdə abituriyentlərin mövzu ilə bağlı sualları cavablandırılıb.

Qeyd edək ki, görüş Naxçıvan şəhər və Babək rayonunun ümumtəhsil məktəblərində təhsil alan abituriyentlərlə keçirilib. Növbəti günlərdə fondun əməkdaşları tərəfindən digər rayonlarda da abituriyentlərlə görüşlərin keçirilməsi nəzərdə tutulub.

# Naxçıvanın “Bərəkət”li məhsulları



Bu gün muxtar respublikamızda fəaliyyət göstərən istehsal sahələrinin, demək olar ki, böyük əksəriyyəti yerli əhalinin qida məhsullarına olan tələbatını tam ödəmək potensialına malikdir. Bu məhsullar arasında “Bərəkət” adı ilə istehsal olunan un, taxıl, o cümlədən heyvandarlıq üçün yem məhsullarını görmək mümkündür. Onu da xüsusi vurğulamaq lazımdır ki, “Naxçıvan Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi “Bərəkət” məhsulları yalnız muxtar diyarımızda yox, ölkəmizin digər regionlarında, hətta qardaş Türkiyə Respublikasında belə məşhurdur.

Yaxın günlərdə yolumuzu adını qeyd etdiyimiz istehsal müəssisəsindən saldıq, müəssisənin iş prinsipi, istehsal gücü, fəaliyyəti barədə ətraflı məlumat aldıq. Bizi qarşılayan “Naxçıvan Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Canməmməd Canməmmədov istehsal müəssisəsi barədə ətraflı məlumat verdi. Öyrəndik ki, “Naxçıvan Taxıl Məhsulları” Məhdud







Məsuliyyətli Cəmiyyəti 2008-ci ildən fəaliyyətə başlayıb. Ötən ildə isə istehsal sahələri və struktur əsaslı şəkildə yenilənib. Müsahibimizin sözlərinə görə, hazırda müəssisədə 3 növdə buğda, 1 növdə qarğıdalı unu, yarma, kəpək, broyler və yumurtalıq quşlar, ev quşları, habelə ətlik və südlük iribuynuzlu və xırdabuynuzlu heyvanlar üçün müxtəlif tərkibli yemlərin istehsalı həyata keçirilir. Buğda unları müxtəlif çəkilərdə – 50, 40, 35, 25, 10, 4 kiloqram, 1 kiloqram 800 qram və 1 kiloqram olmaqla istehsal edilir. Müxtəlif yemlər isə 50 kiloqram çəkidə olmaqla paketlənir. Həmçinin bütün məhsulların topdan və pərakəndə satışı təşkil olunur.

Canməmməd müəllim onu da qeyd etdi ki, müəssisə muxtar respublikada dövlət və səfərbərlik ehtiyatlarının həyata keçirilən məqsədilə saxlanca verilmiş ehtiyat taxılın saxlanmasını da həyata keçirir.

İstehsal sahəsi ilə tanışlığa böyük taxıl siloların olduğu ərazidən başlayırıq. Müsahibimiz məlumat verir ki, burada 9 taxıl silosu var ki, onların hər birində 3 min ton taxıl hasil etmək mümkündür. Bu da, ümumilikdə, 27 min ton taxıl tədarükünə imkan verir. Bu ərazidə taxıl ehtiyatlarının tədarük olunması ilə yanaşı, həm də onların qəbul edilməsini həyata keçirirlər. Zəmilərdən hasil olunub bura gətirilən taxılın qəbul edilməsi sadə iş prosesinə əsaslansa da, böyük diqqət və dəqiqlik tələb edir. Taxıl qəbul edildikdən sonra isə müəyyən ardıcıllıqla istehsala göndərilir; ilk olaraq onun keyfiyyəti, nəmliyi yoxlanılır, daha sonra yuyulub təmizlənir. Bir-birinin ardınca icra olunan bu proseslər, nəhayət, istehsal zamanı yekunlaşır.

Müəssisənin bir hissəsi ilə tanış olduqdan sonra növbəti prosesləri izləməyə, “Bərəkət” unlarının istehsalını görməyə gedirik. Bir qədər çətin və mürəkkəb iş prinsipinə əsaslanan un istehsalı barədə Canməmməd müəllim deyir ki, bu gün ölkəmizdə keyfiyyət şüarı altında satılan kifayət qədər unlara rast gəlirik. Hər çəkidə, keyfiyyətdə olan bu unların bir qismi alıcıların rəğbətini qazansa da, böyük bir hissəsi bu və ya digər səbəblərə görə özünə alıcı kütləsi toplaya bilmir. Bunun başlıca səbəbi unun keyfiyyətinin aşağı olması, həmin undan hazırlanan məhsulların dadsız, ətirsiz, keyfiyyətsiz alınmasıdır. Lakin bu gün “Bərəkət” unlarının kifayət qədər alıcıları var.

Müsahibimizin sözlərinə görə, hazırda müəssisədə əla, ikinci növ və kəpəkli un olmaqla, üç növdə un istehsalı həyata keçirilir. Yaxın müddət ərzində isə artan tələbatı, xüsusən də şirniyyatların keyfiyyətli, dadlı-tamlı hazırlanmasını nəzərə alaraq premium unun istehsalı həyata keçiriləcək.

Müəssisədə bir-biri ilə əlaqəli olan müasir texnikalar un istehsalında, sözün əsl mənasında, böyük dəqiqliklə, necə deyərlər, nizam-intizamla çalışır. Bu sahəyə təhkim olunan şəxslərin böyük məsuliyyətlə istehsal prosesinə nəzarət etməsi bizdə yaxşı təəssürat oyadır.

Ümumilikdə, beş mərtəbədən ibarət olan müəssisəni gəzir, un istehsalının iş prinsipi barədə ətraflı məlumat alırıq.

Sonra növbəti istehsal binasına yaxınlaşıb kənd təsərrüfatında böyük ehtiyac duyulan heyvan yemlərinin hazırlanmasını izləyirik. Müsahibimiz xatırladır ki, burada iribuynuzlu, xırdabuynuzlu ətlik, südlük heyvanların yemindən tutmuş, ev quşlarının qidalanmasında istifadə edilən yemlərə qədər bir neçə növdə məhsul istehsal olunur. Heyvan yemlərinin qardaş Türkiyə Respublikasına ixrac olunması da planlaşdırılır.



Yem istehsalı müəssisəsi, hazır məhsulların cəm olduğu ayrıca bölmə, ardınca isə anbarla tanış olduqdan sonra çay süfrəsi ətrafında söhbətimizi davam etdiririk. Canməmməd müəllim deyir ki, hazırda “Naxçıvan Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin strukturu idarəetmə aparatı, maliyyə və mühasibatlıq şöbəsi, daxili nəzarət və təhlükəsizlik şöbəsi, satış, un istehsalı, taxıl ehtiyatları, hazır məhsullar, yarma və paketləmə, yem istehsalı bölmələri və təsərrüfat sahəsindən ibarətdir. Hazırda burada 107 nəfər çalışır.





Həmsöhbətimiz onu da qeyd etdi ki, 2023-cü ildə “Naxçıvan Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafına dəstək məqsədilə yerli təsərrüfatçılar tərəfindən tədarük olunmuş 5600 tona yaxın yerli buğda qəbul edilib. Qəbul edilən yerli buğdanın miqdarının çox olması təsərrüfatçıların gələcəkdə bu sahədə daha əzmlə çalışmasına stimul verir. Həmçinin yerli məhsulun bolluğu və vətəndaşlarımızın əsas qida növü olan una əlçatanlığı nəzərə alınaraq cəmiyyət tərəfindən satışa çıxarılan 50 kiloqram buğda ununun qiyməti 37 manatdan 27 manata endirilib.

Keyfiyyət amilinin ön planda olması, istehsal edilən hər məhsulda kəmiyyətdən daha çox keyfiyyətə diqqətin ayrılması bazar iqtisadiyyatını formalaşdıran, onun inkişafını şərtləndirən başlıca amildir. “Naxçıvan Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində də məhz bu amilə ciddi fikir verilir. Buna görə də istehlakçılar “Bərəkət”li məhsulu digərlərinə dəyişmirlər.

**Məcid RƏŞADƏTOĞLU**

## “Şərq qapısı” qəzeti yaradıcılıq müsabiqəsi elan edir

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş “Naxçıvan 100 ildə” yaradıcılıq müsabiqəsində hər kəs iştirak edə bilər.

Müsabiqədə iştirak etmək istəyənlər müəyyənləşdirdiyi sahə üzrə hazırladığı işi (yazı, foto) “Şərq qapısı” qəzeti redaksiyasına təqdim etməlidirlər.

Müsabiqəyə təqdim edilmiş materialların qiymətləndirilməsi redaksiya tərəfindən təsdiq olunmuş 6 (altı) nəfərdən ibarət münsiflər heyəti tərəfindən aparılır.

Yaradıcılıq müsabiqəsi qəzet məqaləsi və fotoreportaj istiqamətləri üzrə keçirilir.

Müsabiqə çərçivəsində iştirakçılar tərəfindən hazırlanacaq materiallar Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf, səhiyyə, mədəniyyət, təhsil, vətənpərvərlik, ordu quruculuğu, gənclər sahəsində görülən işlər, ekologiya, idman, müasir inkişaf mənzərəsi və digər istiqamətlərdən birini və ya bir neçəsini əhatə etməlidir.

Müsabiqəyə rəngli və ağ-qara, jpeg formatda olan fotolar təqdim edilə bilər. Bir müəllif 5 (beş) fotodan artıq təqdim edə bilməz.

Müsabiqəyə təqdim olunan işlərin qiymətləndirmə meyarları aşağıdakı kimidir:

*– müsabiqənin şərtlərinə cavab verməsi, istiqamətlərdən birini və ya bir neçəsini özündə əks etdirməsi;*
*– işlərin bədii səviyyəsi və keyfiyyəti;*
*– mövzunun əhatə olunması;*
*– jurnalist araşdırması və əsaslandırma;*
*– ideyanın orijinallığı;*
*– savadlı kompozisiya həlli;*
*– materialın dil və üslub xüsusiyyətləri;*
*– işin təsiredici qüvvəyə malik olması, oxucu üçün informasiya səviyyəsi, mövzunun asan qavranılması və açılması, ictimai maraqların müdafiəsi və sair;*
*– fikrin bədii-estetik ifadəsi, yaradıcı yanaşma.*

Müsabiqə 1 aprel 2024-cü il tarixdən 30 iyun 2024-cü il tarixədək olan müddətdə keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyənlər hazırladıqları işləri 30 iyun 2024-cü il tarixədək “Şərq qapısı” qəzeti redaksiyasına təqdim etməlidirlər.

Müsabiqədə hər istiqamət üzrə 4 (dörd) nəfər olmaqla, birinci, ikinci, üçüncü və həvəsləndirici yerlər nəzərdə tutulur:

*I yer – 2 nəfər*
*II yer – 2 nəfər*
*III yer – 2 nəfər*
*Həvəsləndirici yer – 2 nəfər*

Qaliblərə pul mükafatı və diplom təqdim olunacaq.

### *Bildiriş*

“PURE ENERGY NAXCIVAN” MMC (VÖEN: 0200806321) fəaliyyətini dayandırdığından ləğv olunur.

### *İtmişdir*

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşamış Səfərov Əli Qəmbər oğlunun adına verilmiş JN-1237B nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Məhərrəmov Əmiralı Lətif oğlunun adına 29.01.2020-ci il tarixdə 215 nömrəli hərbi hissə komandiri tərəfindən verilmiş AD 0044367 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbə sakini Quliyev Cəfərqulu Müseyib oğluna məxsus JN-1004 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Arbatan kəndində yaşamış Xəlilov Nəbi Səfər oğlunun adına verilmiş JN-112 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Ələkli kənd sakini Osmanov Nadir Sərdar oğlunun adına olan JN-0083 nömrəli, 10218028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Unus kəndində yaşamış Hüseynov Məzahir Şahhüseyn oğlunun adına olan 4508 inventar nömrəli texniki pasport və MH-0062590 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

İsmayılov Bayram İbrahim oğlunun adına olan gizirin SQ-0025930 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Muğanlı kənd sakini Ələkbərova Gülüstan Mirzə qızının adına verilmiş JN-0038 nömrəli, 10214028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

İmanov Vasif Nəcəf oğlunun adına olan A-423455 nömrəli Əfqanıstan müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

02.05.2014-cü il tarixli 196 inventar nömrəli 105013000405-10301 reyestr nömrəli daşınmaz əmlakın texniki pasportu itdiyindən etibarsız sayılır.

***

24 noyabr 2021-ci il tarixli 009 inventar nömrəli 103011000076-11301 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 88